PREZİDENT İNFORMASİYA müharibəsinin ön cəbhəsində

44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də Prezident İlham Əliyev informasiya müharibəsinin ön xəttindədir. Bu baxımdan dövlət başçısının Qlobal Media Forumunda xarici media nümayəndələri ilə birbaşa təması, həmçinin "Euronews" telekanalına müsahibəsi mühüm əhəmiyyət daşıyır.

Son günlərdə dünyadakı erməni lobbisinin birbaşa dəstəyi ilə Azərbaycana qarşı yenidən beynəlxalq formada informasiya müharibəsinə start verilib. Səbəb ölkəmizin beynəlxalq hüquqla təsbit olunmuş ərazilərində hüququn aliliyinin və suverenliyinin tam bərpası istiqamətində atdığı ardıcıl və qətiyyətli addımlardır.

Analoji vəziyyəti Vətən müharibəsi zamanı da yaşadıq. Həmin dövrdə Azərbaycanın informasiya blokadasına düşməməsində Prezident İlham Əliyevin çıxışları, beynəlxalq KİV-lərə müsahibələri müstəsna rol oynadı. İndiki məqamda da Azərbaycan Prezidenti dünya ilə birbaşa kommunikasiyaya gedərək bütün məsələlər üzrə mövqeyini ortaya qoyur.

SƏHİFƏ 4-DƏ

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

5 AVQUST ŞƏNBƏ 2023 | 28 (4130) Qiyməti - 40 qəpik www.kaspi.az

ZƏLZƏLƏ PAMBIQÇILARIN İŞİNİ ÇƏTİNLƏŞDİRİB

Azərbaycanda "ağ qızıl"ın istehsalı 2021-ci illə müqayisədə 2022-ci ildə artıb. Lakin bu ilin yanvar-may aylarının statistik göstəricilərinə əsasən, Azərbaycanın pambıq ixracı iki dəfədən çox azalıb. Ekspertlər bu azalmanı Türkiyədəki dağıdıcı zəlzələdən sonra bu ölkəyə ixracın azalması ilə əlaqələndirirlər.

SƏHİFƏ 14-də

HUMANİSTLƏRİN QEYRİ-HUMANİST TƏRƏFKEŞLİYİ

Rəsmi Bakının Beynəlxalq Qırmızı Xaç Komitəsinin Qarabağdakı fəaliyyəti ilə bağlı narazılığı artır. Əsas tələb budur ki, təşkilat Azərbaycanın dövlət sərhədlərinə, qanunlarına hörmət etməli, fəaliyyətində şəffaf olmalıdır.

BQXK QURUMLARA ÇAĞIRIŞ ETMƏLİDİR

Azərbaycan humanitar yardımlar üçün Ağdam-Xankəndi yolunu təklif edir. Bu təşəbbüs bir çox beynəlxalq təşkilatlar və vasitəçilər tərəfindən də dəstəklənir. Amma BQXK susur. Təşkilat nədənsə unudur ki, Laçın yolunun bağlanmasına əsas səbəb ermənilərin təxribatlarıdır.

NİYƏ BAKIYA YOX, İRƏVANA TABEDİR?!

Azərbaycanın BQXK ilə bağlı tələbləri ən yüksək səviyyədə də ifadə olundu. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib: "Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir".

SƏHİFƏ 3-DƏ

HUMANİZMƏ QAÇAQMALÇILIQ CAVABI

Azərbaycan humanizm prinsipini əsas tutaraq, Qarabağdakı xəstə ermənilərin hərəkətinə imkan yaratdı. Lakin BQXK maşınlarında çoxsaylı qaçaqmalçılıq məhsulları aşkarlandı.

HİNDİSTAN MÜSƏLMANLARI ÇƏTİN DURUMDA

Dünyanın əhali sayına görə iki ən böyük ölkəsindən biri olan Hindistanda dini zəmində toqquşmalar yenidən alovlanıb. Radikal hindlilərin təxribatları nəticəsində artıq müsəlmanların məskunlaşdığı rayonlarda onlarla şəxs zorakılıqların qurbanı olub.

SƏHİFƏ 5-də

"ƏBƏDİ ŞƏHƏR"Ə SƏYAHƏT

İtaliyanın paytaxtı Roma bir neçə min il əvvəl insanların necə yaşadığını öz gözlərinizlə görə biləcəyiniz muzey, hər küncdə heyrətamiz attraksionlar təklif edən bir şəhərdir. Burada "Top-10"-luqda olan görməli yerlər var ki, onlarla mütləq yaxından tanışlıq lazımdır.

SƏHİFƏ 8-də

BAL HƏM AZ OLACAQ, HƏM DƏ BAHA

Hava şəraitinin qeyri-sabit keçməsi arıçılıq təsərrüfatına mənfi təsir göstərib. Bu il bal yığımında ölkənin bütün regionlarında xeyli azalma müşahidə edilib. Ekspertlər düşünür ki, bu vəziyyət qarşıdakı dövrdə arıçılıq məhsullarının, xüsusilə də balın qiymətinin artmasına səbəb olacaq.

SƏHİFƏ 11-də

Öz toyuğumuz, yumurtamız yoxdur? Səhifə 12-də

Pomidorun bazarı daralır Səhifə 7-də

Paşinyan Tonoyanı "sındırdı" Səhifə 6-da

Oğrulardan necə qorunmalı? Səhifə 10-da

Uşaqlarda rast gəlinən allergik hallar Səhifə 13-də

Kaspi ÜÇ ƏSRİN QƏZETİ



Azərbaycan XİN Gürcüstana başsağlığı verib

Azərbaycan Xarici İşlər Nazirliyi Gürcüstana başsağlığı verib. "Report" xəbər verir ki, bu barədə nazirliyin tviterində paylaşım edilib. "Gürcüstanın Şovi və Raça bölgəsində baş verən güclü sürüşmə nəticəsində yaxınlarını itirən ailələrə başsağlığı veririk. Ümid edirik ki, hələ də itkin düşən onlarla insan sağ-salamat tapılacaq. Biz Gürcüstan hökumətinin və xalqının yanındayıq", - paylaşımda bildirilib.

Qeyd edək ki, Gürcüstanın Şovi kurortunda baş verən faciə ilə əlaqədar avqustun 7-si matəm günü elan edilib. Şovidəki sürüşmə nəticəsində son məlumatlara görə 11 nəfər ölüb.

Daha 22 ailə Ağalı kəndinə köçürüləcək

Zəngilan rayonunun Ağalı kəndinə növbəti köç olacaq. Bu barədə "Report"a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Belə ki, avqustun 4-də Dövlət Komitəsində növbəti mərhələdə Zəngilan rayonunun Ağalı kəndinə köçürüləcək ailələr arasında püşkatma keçirilib. Püşkatmada 22 ailə (106 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 9-u üçotaqlı, 9-u dördotaqlı, 4-ü beşotaqlı fərdi yaşayış evi ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Püşkatmada iştirak etmiş ailələr, qrafikə uyğun olaraq, avqustun 12-də Ağalı kəndinə yola salınacaqlar.

"Heç nə əvvəlki kimi olmayacaq"

"Bakıya səfər zamanı 44 günlük müharibənin Azərbaycan xalqında yaratdığı qürur, özünəinam və Türkiyə sevgisini yaxından görmək imkanımız oldu. Şuşaya səfərimiz də bu qürur və özünəinamın göstəricisidir. Biz gördük ki, geriyə yol yoxdur və Azərbaycanın siyasi iradəsini qırmaq mümkün deyil".

"Report" xəbər verir ki, bu fikirlər Türkiyənin "Dünya" qəzetinin yazarı Ragıp Kutay Karacanın Azərbaycana səfərlə bağlı köşə yazısında yer alıb. Müəllif Azərbaycan Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Şuşaya baş tutan səfərinin yekunları barədə bağlı hazırladığı məqaləsində Füzulidə gördüklərindən şoka düşdüyünü vurğulayıb.

R.K.Karaca iki Füzulinin şahidi olduğunu qeyd edib: "Birincisi, 30 il dağıdılan, daşı daş üstündə qalmayan Füzuli. İkincisi, yenidən qurulan və qeyri-adi sürətlə bərpa edilməkdə olan müasir Füzuli". Yazar daha sonra ermənilərin işğal zamanı bölgəni minalamasına toxunub, minatəmizləmə işlərinə təxminən 30 il və 25 milyard dollar lazım olduğunu diqqətə çatdırıb.

"Abşeron" yatağına yeni səhmdar daxil olur

SOCAR, "TotalEnergies" və ADNOC şirkətləri arasında 30%-lik iştirak payının satışına dair saziş imzalanıb. Satınalma tamamlandıqdan sonra ADNOC şirkəti "Abşeron" qaz-kondensat yatağında 30% iştirak payı əldə edəcək, SOCAR və "TotalEnergies" şirkətlərinin hər birinin iştirak payları isə, müvafiq olaraq 35% təşkil edəcək.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), "TotalEnergies" və Əbu Dabi Milli Neft Şirkəti (ADNOC) arasında imzalanma mərasimi keçirilib. SOCAR-dan "Report"a verilən məlumata görə, tədbirdə Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, "TotalEnergies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terraz, ADNOC şirkətinin aşağı karbon həlləri və beynəlxalq inkişaf üzrə icraçı direktoru Musabbeh Al Kaabi iştirak ediblər.

ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİ

Mərasimdə açılış nitqi ilə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov sazişin əhəmiyyətindən bəhs edərək sənədin "Abşeron" layihəsinin gələcək inkişafında mühüm mərhələ olacağına inamını ifadə edib. Azərbaycanın enerji sənayesinin ölkəmiz ilə yanaşı, regionun iqtisadi inkişafına da mühüm töhfə verdiyini bildirən nazir Azərbaycana xarici sərmayələrin daxil olmasında təbii resurslarla yanaşı, yaradılan əlverişli investisiya mühitinin xüsusi rol oynadığını vurğulayıb.

ADNOC 30% İŞTİRAK PAYI ƏLDƏ EDƏCƏK

Daha sonra SOCAR, "TotalEnergies" və ADNOC şirkətləri arasında Abşeron qaz-kondensat yatağında 30%-lik iştirak payının satışına dair Saziş imzalanıb.

Satınalma tamamlandıqdan sonra ADNOC şirkəti "Abşeron" qaz-kondensat yatağında 30% iştirak payı əldə edəcək, SOCAR və "TotalEnergies" şirkətlərinin hər birinin iştirak payları isə, müvafiq olaraq 35% təşkil edəcək.

ADNOC-un Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) hüdudlarından kənarda apstrim layihəsində ilk investisiyasını Azərbaycana yatırması ölkəmizdə xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Saziş Azərbaycan və BƏƏ arasında strateji əlaqələri daha da gücləndirəcək və ölkəmizin etibarlı təbii qaz təchizatçısı kimi mövqeyinə dəyərli töhfəsini verəcək.

ANLAŞMA MEMORANDUMU DA İMZALANIB

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağı JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) tərəfindən idarə olunur. Yataqdan ilk qaz cari ilin iyul ayının əvvəlində hasil edilib.

Satınalma ilə yanaşı, SOCAR və ADNOC arasında Anlaşma Memorandumu da imzalanıb. İmzalanmış sənəd SOCAR-ın Əbu Dabidə həyata keçirilən apstrim layihələrində iştirakını və bu istiqamətdə ADNOC tərəfindən müvafiq dəstəyin göstərilməsini nəzərdə tutur. Memorandum çərçivəsində tərəflər, eyni zamanda, bərpa olunan enerji və aşağı karbon həlləri sahəsində, habelə hər iki şirkət tərəfindən razılaşdırılmış üçüncü ölkələrdə neft-qaz sahəsində investisiya imkanları ilə bağlı potensial əməkdaşlıq istiqamətlərini araşdıracaq.

HUMANİSTLƏRİN QEYRİ-HUMANİST TƏRƏFKEŞLİYİ

Rəsmi Bakının Beynəlxalq Qırmızı Xaç Komitəsinin Qarabağdakı fəaliyyəti ilə bağlı narazılığı artır. Əsas tələb budur ki, təşkilat Azərbaycanın dövlət sərhədlərinə, qanunlarına hörmət etməli, fəaliyyətində şəffaf olmalıdır.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

"Müstəqil, bitərəf, qərəzsiz fəaliyyət". Sadə azərbaycanlıların adını, demək olar ki, hər gün eşitdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) münaqişə bölgələrindəki fəaliyyətinin məhz bu prinsiplərə əsaslandığını iddia edir. Lakin təşkilatın Azərbaycanın suveren ərazilərində, müvəqqəti rus sülhməramlılarının nəzarətində olan Qarabağ bölgəsindəki fəaliyyəti heç də qeyd etdiyimiz prinsiplərə uyğun gəlmir.

"QIRMIZI XAÇ"IN NÜFUZUNA CİDDİ ZƏRBƏ

Son bir neçə ayda Laçın sərhəd buraxılış məntəqəsində yaşananlar bu qənaətə gəlməyə ciddi əsas yaradır. Azərbaycan humanizm prinsipini əsas tutaraq, Qarabağdakı xəstə ermənilərin BQXK vasitəsilə Ermənistan və əks istiqamətdə hərəkətinə imkan yaratdı. Lakin BQXK maşınlarında çoxsaylı qaçaqmalçılıq məhsulları aşkarlandı. Hansı ki, bu, beynəlxalq humanitar hüququn aşkar şəkildə pozulması idi.

CİNAYƏTKARLAR "XƏSTƏ" ADI İLƏ QAÇIRILIR

BQXK-nin Qarabağdakı "humanitar fəaliyyət"ini zərbə altında qoyan hadisələrin kuliminasiya nöqtəsi isə 1990-cı illərin əvvəllərində Xocalı rayonunun Meşəli kəndində onlarla silahsız dinc azərbaycanlını qətlə yetirən Vaqif Xaçaturyanın sərhəddə hüquq-mühafizə orqanları tərəfindən saxlanılması oldu. Soyqırımı cinayətləri törədən bu şəxs məhz BQXK tərəfindən Ermənistana "xəstə" adı ilə aparılırdı. Sual yaranır: təşkilat kimləri apardığını araşdırmayıbmı? BQXK-nin 30 ildən artıq beynəlxalq axtarışda olan şəxsin kimliyi və əməllərindən xəbərdar olmaması barədə bəhanələri isə sadəcə nonsensdir.

AZƏRBAYCANLILARIN TALEYİNƏ BİGANƏ MÜNASİBƏT

Əslində BQXK-nin fəaliyyəti zamanı işğalın, həmçinin çoxsaylı soyqırımıların qurbanına çevrilmiş azərbaycanlıların taleyinə biganə münasibəti heç kimə sirr deyil. Faktlara diqqət yetirək:

90-cı illərdə BQXK 54 nəfər azərbaycanlı əsirlə bağlı izə düşmüş, Ermənistan tərəfi ilə dialoq nəticəsində onlardan 17 nəfərinin meyitlərini alaraq Azərbaycan tərəfinə təhvil vermişdi. Ancaq həmin siyahı üzrə 37 nəfərin taleyi hələ də bilinmir. Bu barədə təşkilat da hansısa açıqlama vermir. Azərbaycan tərəfi ilə BQXK arasında həmin 54 nəfərin əsirlikdə olduğunu təsdiq edən yazışmalar indi də durur. Şahid ifadələri zamanı terrorçu ermənilərin əsir azərbaycanlıları öldürərək onların orqanlarını satmasına dair çox ciddi ehtimallar var. BQXK-nin bu məsələdəki susqunluğu isə çox ciddi ittihamları özündə cəmləyən açıq suallar doğurmaqdadır.

Digər bir fakt. Hələ işğal davam edən zaman - 2000-ci illərdə BQXK rəsmi Bakının razılığı olmadan Xankəndidə "ofis"ini açdı, hətta separatçı rejimlə "saziş" də imzaladı. Azərbaycan tərəfinin dəfələrlə rəsmi müraciətlərinə baxmayaraq, həmin "saziş" konfidensiallıq adı altında gizlədildi, təqdim olunmadı. Lakin rəsmi Bakının israrlı araşdırmalarından sonra təşkilatın "Xankəndi ofisi"nin Bakıdakı nümayəndəliyə deyil, İrəvandakı nümayəndəliyinə tabe etdirildiyi ortaya çıxdı.

BAKININ TƏKLİFİ

İndi isə Azərbaycan humanitar yardımlar üçün Ağdam-Xankəndi yolunu təklif edir. Bu təşəbbüs bir çox beynəlxalq təşkilatlar və vasitəçilər tərəfindən də dəstəklənir. Amma BQXK susur. Təşkilat nədənsə unudur ki, Laçın yolunun bağlanmasına əsas səbəb ermənilərin təxribatlarıdır. Humanitar yardım üçün Ağdam-Xankəndi yoluna beton sədlər çəkən də azərbaycanlılar yox, məhz separatçılar və onların ələltılarıdır. BQXK məhz bu yolun açılması və humanitar yüklərin daşınmasına şərait yaradılması üçün beynəlxalq qurumlara çağırış etməli, Azərbaycanı beynəlxalq səviyyədə "hədəf"ə çevirmək istəyənlərin dəyirmanına su tökməməlidir.

"XANKƏNDİ OFİSİ" NİYƏ BAKIYA YOX, İRƏVANA TABEDİR?!

Azərbaycanın BQXK ilə bağlı tələbləri ən yüksək səviyyədə də ifadə olundu. Prezident İlham Əliyev "Euronews" kanalına müsahibəsində ölkəmizə qarşı "humanitar tələblər" irəli sürənlərə cavab olaraq BQXK-nin Qarabağdakı fəaliyyətinə dair mühüm açıqlamalar verdi. Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı qaçaqmalçılıq hallarının aşkarlandığını deyən Prezident qeyd etdi ki, təşkilat özü də bunu etiraf etdi: "Əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta, Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir".

Göründüyü kimi, Azərbaycan rəhbərliyi, dövləti və cəmiyyəti ümummilli maraqların təminində, soydaşlarımıza qarşı cinayət törədənlərin ədalət məhkəməsinə təslim edilməsində, ölkəmizi təhdid edən istənilən qurumun və təşkilatın qanunlarımıza mütləq riayət etməsində vahid mövqe nümayiş etdirir. Bu iradəni heç bir qüvvə dəyişə bilməz.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

Prezident informasiya müharibəsinin ön cəbhəsində

44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də Prezident İlham Əliyev Azərbaycana qarşı total şəkildə aparılan informasiya müharibəsinin ön xəttindədir. Bu baxımdan dövlət başçısının Şuşada keçirilən Qlobal Media Forumunda 100-dən artıq xarici media nümayəndəsi ilə birbaşa təması, həmçinin bir neçə gün əvvəl "Euronews" telekanalına müsahibəsi mühüm əhəmiyyət daşıyır.

BƏXTİYAR MƏMMƏDLİ
bextiyarmemmedli@kaspi.az

Son günlərdə dünyadakı erməni lobbisinin birbaşa dəstəyi ilə Azərbaycana qarşı yenidən beynəlxalq formada informasiya müharibəsinə start verilib. Səbəb ölkəmizin beynəlxalq hüquqla təsbit olunmuş ərazilərində hüququn aliliyinin və suverenliyinin tam bərpası istiqamətində atdığı ardıcıl və qətiyyətli addımlardır. Bu kampaniyanın əsas oyunçuları isə dəyişməz olaraq qalır. Analoji vəziyyəti tarixi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsi zamanı da yaşadıq. Həmin dövrdə Azərbaycanın informasiya blokadasına düşməməsində Prezident İlham Əliyevin çıxışları, beynəlxalq KİV-lərə müsahibələri müstəsna rol oynadı. İndiki məqamda da Azərbaycan Prezidenti dünya ilə birbaşa kommunikasiyaya gedərək bütün məsələlər üzrə mövqeyini ortaya qoyur. Bu baxımdan, dövlət başçısının Şuşada keçirilən Qlobal Media Forumunda 100-dən artıq xarici media nümayəndəsi ilə birbaşa təması, həmçinin bir neçə gün əvvəl "Euronews" telekanalına müsahibəsi mühüm əhəmiyyət daşıyır.

"O, SÜLH RAZILAŞMASI DEYİLDİ"

Prezident İlham Əliyev "Euronews" televiziyasının müxbirinin suallarını cavablandırarkən, 2020-ci ildə imzalanan sülh razılaşmasından sonra vəziyyətin fərqli olacağını düşündüyünü deyib. Azərbaycanın sülhə hazır olduğunu bildirən ölkə başçısı qeyd edib ki, bunun üçün beynəlxalq iştirakçılardan yeni təkliflərin gəlməsini gözlədik: "Anladıq ki, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Amma yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq".





"VƏZİYYƏTİN DURĞUN OLMASINA İMKAN VERMİRİK"

Prezident İlham Əliyev Brüsseldəki son görüşlərin bir çox həssas məsələlərə toxunmaq imkanı verdiyini deyib. Qeyd edib ki, 1992-ci ildən etibarən - hələ işğal dövründə aparılan danışıqlar zamanı Avropa İttifaqı vasitəçilik prosesinin bir hissəsi olmayıb. İndi bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsüdür. Dövlət başçısı əlavə edib ki, bu təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir. Çünki görüşlər təkcə Brüsseldə deyil, həmçinin Avropa Siyasi Birliyinin tədbiri çərçivəsində Kişineuda baş tutub: "Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, durğunluq yaranarsa, yenidən bir növ fasiləyə keçərsə, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik".

Vasitəçiliyin Avropa İttifaqı, ABŞ və ya Rusiya tərəfindən aparılması məsələsinə toxunan Prezident İlham Əliyev bildirib ki, atəşkəs sazişinin, yəni 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi nə Birləşmiş Ştatlar, nə də Avropa İttifaqı deyil, Rusiya olub. Dövlət başçısı qeyd edib ki, Rusiya -Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular: "Əslində, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Biz sülh sazişi ilə nəticələnəcək təşəbbüs irəli sürən hər hansı tərəfi dəstəkləyəcəyik".

QƏRBLƏ ENERJİ ƏMƏKDAŞLIĞI

Qərblə əldə edilən enerji daşımaları ilə bağlı razılaşmalara dair sualı cavablandıran ölkə rəhbəri Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyətin yeni ölçü yaratdığını vurğulayıb: "Çünki hazırda enerji sərvətlərimiz heç zaman olmadığı kimi zəruridir. Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib".

"BU GÜN ERMƏNİSTAN SÜLH İSTƏYƏRSƏ, BİZ ONA NAİL OLACAĞIQ"

Prezident İlham Əliyev Laçın yolu ilə əlaqədar müxtəlif media quruluşlarında yaradılan süni ajiotajla bağlı bildirib ki, bu yol heç vaxt bağlanmayıb, hərəkət məhdudlaşdırılmayıb: "Aprelin 23-dən - sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib. Amma iyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl atdı və bizim sərhədçilərimizdən birini yaraladı. Araşdırma aparıldığı üçün yol müvəqqəti olaraq bağlansa da, sonra təkrar açıldı".

Dövlət başçısı bir daha vurğulayıb ki, bu gün Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Prezident İlham Əliyev bəyan edib ki, bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur: "Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk".

Hindistan müsəlmanları ÇƏTİN DURUMDA

Dünyanın əhali sayına görə iki ən böyük ölkəsindən biri olan Hindistanda dini zəmində toqquşmalar yenidən alovlanıb. Radikal hindlilərin təxribatları nəticəsində artıq müsəlmanların məskunlaşdığı rayonlarda onlarla şəxs zorakılıqların qurbanı olub.

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Əhali sayına görə dünyanın iki ən böyük ölkəsindən biri olan Hindistanda milli və məzhəb zəminində gərginliklər artmaqdadır. Həftənin ilk günü ölkənin şimal əyalətlərində məzhəb zəminində zorakılıqların baş verməsi, nəticədə insan itkilərinin yaşandığı xəbərləri ilə başlayıb. Hindistan hakimiyyəti bölgədə internetə çıxışı bağlayıb, minlərlə hərbçi və polisi Haryana əyalətinin şimalına göndərib.

TOQQUŞMALARIN ƏHATƏSİ GENİŞLƏNİR

Yerli media yazır ki, əsasən müsəlmanlar olan ərazidə hindli millətçi qruplarının yürüşü zamanı hindlilərlə müsəlmanlar arasında baş verən dini toqquşmalar nəticəsində beş nəfər həlak olub, onlarla insan yaralanıb. Sağçı hindli qrupları – "Bajrang Dal" və "Visva Hindu Parişad" Haryana ştatının müsəlmanların çoxluq təşkil etdiyi Nuh rayonunda dini yürüşə başçılıq etdikdən sonra zorakılıqlar başlayıb. Hindistan mediası qarşıdurmaların Monu Monesarın dini yürüşə qatılma planları məlum olduqdan sonra başladığını yazıb. "Bajrang Dal" qrupunun üzvü olan Monesar fevral ayında cəsədləri yandırılan iki müsəlmanın qətlində şübhəli bilinərək polis tərəfindən axtarışa verilib. Müsəlman icması da onun aksiyada iştirakını birbaşa onlara çağırış kimi qiymətləndirib. Nuhdan çəkilən kadrlarda izdihamın daş atması, avtomobilləri yandırması və mağazaları dağıtması görünür. Polis kütləni dağıtmaq üçün gözyaşardıcı qaz tətbiq edib və havaya atəş açıb. Toqquşmalar Dehli ətrafı Qurqaon, Fəribad və Palval ərazilərinə yayılıb. Polis həmçinin, zorakılığın baş verdiyi ərazilərdə dörd və ya daha çox insanın toplaşmasına qadağa qoyub. Haryana əyalət hökuməti "müxtəlif sosial media platformaları vasitəsilə dezinformasiya və şayiələrin yayılmasının qarşısını almaq üçün" Nuh rayonunda bütün mobil internet və SMS xidmətlərini qadağan etdiyini söyləyib.

İLDƏN-İLƏ ARTAN RADİKAL HİNDLİ MİLLƏTÇİLİYİ

Ümumiyyətlə, Hindistanda radikal hindli millətçiliyi ildən-ilə artır. Yerli medianın yazdığına görə, son illərdə yüksələn millətçiliyin alovlanmasının əsas səbəbi millətçi və radikal qüvvələrin hakimiyyətdə olmasıdır. Hindistanda 2014-cü ildən Narendra Modi və onun partiyası iqtidar olduqdan sonra etnik gərginlik artıb, daha dəqiqi, hindli millətçiliyi radikallaşıb.

Gərginliyin artmasında iki il əvvəl müsəlmanlara qarşı ayrı-seçkiliyin yer aldığı qanunun qəbulu da az rol oynamayıb. Qeyd edək ki, Hindistanda müsəlmanlar və hindlilər arasında gərginlik ötən əsrin 40-cı illərindən start götürüb. Həmin vaxt Hindistanın müsəlman və hindli dövlətinə bölünməsini hindli-müsəlman münaqişəsinin nəticəsi də hesab etmək olar.

KOLONİALİST FRANSA İLƏ MİLLƏTÇİ HİNDİSTANIN YAXINLAŞMASI

Hindistanda müsəlmanlarla bağlı ayrı-seçkilik mövcuddur. Bura vətəndaşlıq qanunu da daxildir. Qanunvericiliyə əsasən, Pakistan, Banqladeş və Əfqanıstandan Hindistana köçən qeyri-müsəlmanlara (hindli, sinkh, buddist), xristianlara vətəndaşlıq verilməsi şərtləri yumşaldılıb. Amma, müsəlmanlar bu güzəştdən məhrum edilib. Bu da qarşıdurmalara gətirib çıxarır.

Beləliklə, Hindistan dövləti ölkənin ən ciddi problemi olan milli zəmində qarşıdurmalara son qoymaq əvəzinə ona laqeyd münasibət bəsləyir, daha çox xarici məsələlərə önəm verir. Özünə müttəfiq dövlət də tapıb – kolonialist Fransa. Xarici və daxili siyasətdə ciddi uğursuzluqlara imza atan prezident Emmanuel Makron hökuməti keçmiş müstəmləkələrində üzləşdiyi antifransız aksiyalar fonunda Hindistanla yaxınlaşmağa başlayıb. Paris Dehli vasitəsilə bölgədə güclənməyə çalışır. Makronun Fransa-Hindistan əlaqələrini inkişaf etdirməkdə əsas məqsədi ölkəsinin Asiya-Sakit okean regionunda təsirini artırmaq və Hindistandan Çinə qarşı potensial müttəfiq kimi istifadə etməkdir. Fransa həm də Hindistana Rusiyadan sonra ikinci ən böyük silah tədarükçüsüdür.

DEHLİ CƏNUBİ QAFQAZDA SABİTLİYƏ TƏHDİD YARADIR

Makronun hədəfi bu məsələdə Hindistanda birinci olmaqdır. Hər iki dövlət hətta Ukrayna münaqişəsinin nizamlanması ilə bağlı birgə planla çıxış ediblər. Təsadüfi deyil ki, Fransa çirkin və qərəzli Cənubi Qafqaz siyasətinə bu ölkəni də cəlb etməyə başlayıb. Fransa hakimiyyətinin Ermənistan siyasəti yenə başadüşüləndir. Erməni lobbisindən aldığı maliyyə müqabilində bunu edir. Bəs Hindistana nə düşüb ki, Ermənistanla 400 milyon dollarlıq silah-sursat sazişi imzalayır, ona öldürücü silahlar təqdim edir? Ola bilsin ki, burada da Fransanın rolu az olmayıb. Artıq təsdiq olunmuş məlumatlara görə, Hindistan istehsalı olan silahlar İran vasitəsilə Ermənistana tədarük olunur. Bununla da rəsmi Dehli Cənubi Qafqaz regionundakı sabitliyə təhdid yaradır. İranın Bəndər-Abbas dəniz limanı vasitəsilə Hindistandan Ermənistana silah-sursatdan ibarət yük göndərilib. Bu, gərginliyi artıra, Cənubi Qafqaz regionunda sabitliyi poza və vəziyyəti daha da çətinləşdirə bilər. Şübhəsiz ki, bu addımlar təkcə regional sülhə deyil, həm də Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanmasına mane olur. Məsələnin başqa tərəfi də var. Hindistan ilə Ermənistan hər zaman regional sabitliyə təhdid yaradıb. Qonşuların təxribatçı hərəkətlərinə qarşı Azərbaycanın reaksiyası ilə Pakistanın yanaşması arasında oxşarlıq Cənubi Qafqaz və Cənubi Asiyanın üzləşdiyi problemlərin ümumi olduğunu göstərir.

Paşinyan Tonoyanı "SINDIRDI"

Ermənistan parlamentinin 44 günlük müharibədəki acı məğlubiyyətin "günahkarlarını ifşa edən komediya"sı davam edir. Bu dəfə hazırda həbsdə olan keçmiş müdafiə naziri David Tonoyan sorğu-sual edilib.

FUAD ABASOĞLU

Ermənistanın həbsdə olan keçmiş müdafiə naziri David Tonoyanla baş nazir Nikol Paşinyan arasında qarşıdurma yeni fazaya qədəm qoyub. 44 günlük müharibənin gedişini araşdıran komissiya qarşısında çıxış edən Tonoyan gözlənilənin əksinə açıqlamalar verərək müxalif düşərgəni məyus edib.

Azərbaycanın dağıdıcı qələbəsi ilə başa çatan 44 günlük müharibə Ermənistanın hərbi-siyasi mühitində zəlzələ effekti vermişdi. Ermənistanın o dövrdə müdafiə naziri olan D.Tonoyan 2020-ci ilin 20 noyabr tarixində tutduğu postdan istefa vermək məcburiyyətində qalmışdı.

BAŞ NAZİRİN KÖLGƏDƏ QALMASINA SƏBƏB OLAN QƏZƏB OXU

Tonoyan 2018-ci ildə Ermənistan prezidenti tərəfindən müdafiə naziri postuna təyin edilib. 2010-2017-ci illər arasında Ermənistanın müdafiə nazirinin müavini postunu tutan Tonoyan Serj Sarqisyana yaxınlığı və sadiqliyi ilə seçilir. Elə bu səbəbdən də özünü heç vaxt Nikol Paşinyanın komandasından saymayıb. Davidin ölkədaxili ciddi nüfuzu və Serj Sarqisyan vasitəsilə ölkə sərhədlərindən kənarda da kifayət qədər güclü dayaqları olub. Onun nüfuzu və özündən razılığı Paşinyanın diqqətindən kənarda qala bilməzdi. 2020-ci ildə baş tutan dövlət tədbirlərinin birində baş nazirin kölgədə qalmasına səbəb olan, insanlara özünü lider kimi təqdim edən Tonoyan hakimiyyətin qəzəb oxuna tuş gəldi. Artıq tərəflər arasında münasibətlərin getdikcə kəskinləşdiyi özünü daha çox büruzə verməyə başlamışdı.

Ermənistanın məğlubiyyəti ilə nəticələnən 44 günlük müharibədən sonra Tonoyanın tutduğu postdan istefa verməsi XİN başçısı Zöhrab Mnatsakanyanın istefası ilə eyni vaxta təsadüf etməsi də diqqətdən yayınmamışdı. Bu, eyni zəncirin halqası idi. Ehtimal edilir ki, N.Paşinyan hakimiyyət eşalonunda funksiyalarını yerinə yetirə bilməyənləri dəyişmək üçün start düyməsinə basıb. Tonoyan isə müharibə nəticələrinə görə istefa verdiyini, məsuliyyətini dərk etdiyini açıqlamışdı.

TONOYANIN PAŞİNYANI TƏNQİDLƏRİ HƏBSLƏ NƏTİCƏLƏNDİ

Tonoyan tutduğu postdan istefa verdikdən sonra Paşinyanla daha kəskin müstəvidə mübarizə aparmağa başlamışdı. Eks-nazir açıqlamalar verir, müharibədəki məğlubiyyətə görə Paşinyanı günahlandırırdı. Onun fikrinə əsasən, ordudakı problemlərin əsas səbəbi Paşinyan idi. Tonoyan bununla da siyasi "xaç atası" Serjə tuşlanan oxları dəf etməyə, "günah keçisi" olmaqdan qurtulmağa, həbsə düşməməyə çalışırdı. Bununla yanaşı, Tonoyan müxalifətə liderlik etmək həvəsində olduğunu da gizlətmir, yavaş-yavaş siyasi arenaya xırda addımlar atmağa başlayırdı. Ölkədə müharibədən sonrakı dövrdə başlayan xaos və etirazlar fonunda Sarqisyan komandasından olan, ondan dəstək alan yeni siyasi rəqibin yetişməsini həzm edə bilməyən Paşinyan Tonoyanın həbsi üçün düyməyə basdı. 2021-ci ildə Tonoyana qarşı bir neçə maddə ilə cinayət işi açıldı.

Eks-nazir vəzifə səlahiyyətlərindən sui-istifadə və silah-sursat alışında 4.6 milyon dollar mənimsəməkdə ittiham edilərək həbsə atıldı.

DƏFƏLƏRLƏ MƏHKƏMƏYƏ MÜRACİƏT EDİLSƏ DƏ, HƏBS QƏRARI DƏYİŞMƏDİ

Davidlə bərabər Silahlı Qüvvələrin baş qərargah rəisi Artak Davtyan, onun müavini Stepan Qalstyan, Müdafiə Nazirliyinin aviasiya idarəsinin keçmiş rəisi Avetik Muradyan, Müdafiə Nazirliyinin aviasiya departamentinin aviasiya texniki əmlakı xidmətinin rəisi Artem Ambaryan, aviasiya idarəsinin baş mühəndisi Vladimir Babayan və silah sövdələşmələrində iştirak edən iş adamı David Qalstyan da həbs edildi. Paşinyan bununla da Tonoyanı və ətrafını neytrallaşdıraraq ondan qurtuldu. Dəfələrlə məhkəməyə müraciət edilsə də, Tonoyan barədə çıxarılan həbs qərarı dəyişmədi.

TONOYAN AÇIQLAMALARI İLƏ "SINDIĞINI" SÜBUT ETDİ

Ermənistan parlamentinin müharibə ilə bağlı istintaq komissiyası əslində Paşinyanın əlində siyasi alətə çevrilib. Paşinyan bu komissiyanı qurmaqla yeni "günah keçi"ləri axtarır, xoşuna gəlməyən hərbçiləri, xüsusən də general və polkovnikləri komissiya qarşısına çıxarır və müharibədəki məğlubiyyətdə hər kəsin payı olduğu fikrini aşılamağa çalışır. İki ilə yaxındır həbsdə olan Tonoyan da komissiya qarşısında çıxış etməyə məcbur edilib. Paşiyanın komissiya qarşısında çıxışından əvvəl Tonoyan iştirak üçün şərt qoymuşdu və iclasda baş nazirin iştirakını, sessiyanın açıq olmasını tələb etmişdi. Amma sonradan fikrini dəyişərək qapalı iclasa razılıq verdiyini bildirdi. Bununla da, Tonoyan hakimiyyətin ona qarşı münasibətini yumşaltmağa və Paşinyanla üz-üzə gəlməməyə çalışdı. Çünki, o da bilir ki, komissiyanın fəaliyyətinin bir məqsədi var: həm Paşinyanın, həm də onun rəhbərlik etdiyi hökumətin müharibə və rüsvayçılığa, gətirdikləri faciə və fəlakətə görə günahını ört-basdır etmək.

İNDİ TOP BAŞ NAZİR NİKOL PAŞİNYANDADIR

Komissiyanın sədri Andranik Köçəryan iclasdan bir gün əvvəl açıqlama verərək sessiyanın həm açıq, həm də qapalı olacağını bildirdi. Eyni zamanda Paşinyana yaxın deputatlara Tonoyana sərt suallar vermək tapşırıldığı faktı da üzə çıxdı. Bununla da, Paşinyan Tonoyana "Dediklərinə diqqət et, ömrünün sonuna qədər həbsdə qala bilərsən" mesajını ötürdü. Tonoyan iclasda müxalifətin iştirakını tələb etsə də, müxalif düşərgədən sessiyada iştirak edən olmadı. Çünki müxalifətin Davidə etimadı qalmayıb və onu lider kimi görmür. Tonoyan komissiya qarşısında çıxışı zamanı Paşinyana ali baş komandan səlahiyyətinin verilməsi, baş nazirlə bağlı fikir bildirməyə səlahiyyətinin çatmaması, həbsinin sırf müharibə məğlubiyyətinə görə olması barədə açıqlamalar verdi. Bununla da, qarşı tərəfi yumşaltmağa, həbs müddətini azaltmağa, tezliklə azadlığa çıxmağa hesablanmış addımlar atdı. İndi top Paşinyandadır. Görək, baş nazir Tonoyanın bu mədhiyyələrindən sonra fikrini dəyişəcəkmi?

POMİDORUMUZUN BAZARI DARALIR

Azərbaycandan pomidor ixracı azalıb. Ekspertlər bunu Rusiya-Ukrayna müharibəsi ilə əlaqələndirirlər. Müvafiq qurum isə ixrac bazarının genişləndirilməsi üçün sistemli işlər aparıldığını deyir.

KÖNÜL CƏFƏRLİ

2023-cü ilin ilk 6 ayında Azərbaycandan 120 milyon 729 min dollar dəyərində 108 min 118 ton pomidor ixrac olunub.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, pomidor ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 4,8%, miqdar ifadəsilə 2,2% azalıb.

Ötən illərdə ölkənin pomidor ixracı ilə bağlı açıqlanan statistikasında daim artım müşahidə edilirdi. Bu il isə artım yox, azalma var. Bəs bunun səbəbi nədir?

ƏSAS İXRACIMIZ RUSİYA BAZARIDIR

İqtisadçı ekspert Eyyub Kərimli pomidor ixracında müşahidə edilən azalmanın səbəbini Rusiya-Ukrayna müharibəsi ilə əlaqələndirib: "Pomidor ixracının azalmasına səbəblərdən biri Rusiyanın iqtisadi vəziyyətidir. Belə ki, Azərbaycanda istehsal edilən pomidorların əsas ixracatçısı Rusiya bazarı sayılırdı. Bu gün müharibə səbəbindən bu ölkədə iqtisadi aktivlik zəifləyib. Rublun ucuzlaşması ilə bağlı hər birimiz artıq məlumatlıyıq. Bizim sahibkarlar da bəzən Rusiyaya ixrac etdikləri pomidorların ödəmələrində problemlər yaşayırdılar. Bu problemlər pomidor ixracına mənfi təsirini göstərir". Ekspert hesab edir ki, bu vəziyyətdən çıxmaq üçün digər ixrac bazarları olan ölkələrlə danışıqlar aparılmalıdır: "Başqa ölkələrlə də iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində zəruri addımlar atılmalıdır. Bildiyimiz kimi, Azərbaycanla Avropa İttifaqı arasında bir sıra müqavilələr bağlanıb. Azərbaycanın ərzaq məhsulları orqanik və təbii olduğu, yüksək keyfiyyətlərə cavab verdiyi üçün Avropa bazarlarına da çıxa bilir. Bu mənada düşünürəm ki, sahibkarlarımız da gələcəkdə satış imkanlarını şaxələndirmək üçün fürsətləri dəyərləndirməlidirlər. İxrac imkanları çoxalmalıdır ki, bir ölkədən asılı vəziyyət yaranmasın. Bir ölkədən asılılıq sonda sahibkarların gəlirlərinin azalmasına gətirib çıxara bilir".

Normalda ixracda azalma yerli bazarda qiymətlərin ucuzlaşmasına səbəb olmalıdır. Amma bu, yerli bazarda o qədər də hiss olunmur. Pomidorun qiyməti regionlarda 40 qəpik, Bakıda 60 qəpik – 2 manat 50 qəpik aralığındadır.

Bazarda pomidoru satanlar da, alanlar da narazıdırlar. Satıcı narazıdır - malını alan yoxdur, alıcı narazıdır - qiymətlər bahadır.

Bazarda məhsul çox olsa da, alıcı qıtlığı yaşanır. Satıcılar bunu yay fəslində insanların istirahətə getməsi ilə əlaqələndirirlər.

İXRAC AZALDIĞINDAN ÖLKƏDƏ YENİ İSTİXANALAR DA QURULMUR

Kənd təsərrüfatı mütəxəssisi Nicat Quluzadə deyir ki, ixracın azalmasının yeganə səbəbi əsas ixrac istiqamətinin Rusiya bazarı olmasıdır. İxrac azaldığından ölkədə yeni istixanalar da qurulmur: "Artıq hamı meyvəçiliyə yönəlir. Əsasən meyvə bağlarına suvarma satışında hərəkətlilik var. Ölkədə fermerlərin çoxunun HACCP, GLOBAL GAP kimi sertifikatları yoxdur. Bu sertifikatlar daha çox iri holdinq və şirkətlərdə var. Ona görə də camaat pomidoru əkir, amma xaricə göndərməyə çətinlik çəkir. Qida Təhlükəsizliyi Agentliyi (AQTA) də xərcləri müəyyən mənada artırır. Müqayisə etdikdə, əvvəllər sənədlərin, ixrac şəhadətnamələrinin əldə edilməsi prosesi daha asan həyata keçirilirdi. İndi isə bir qədər çətinləşdirilib. Eləcə də, indi lisenziya, laboratoriya xərcləri də çoxalıb. İndi bazarda olan məhsul Xaçmaz, Masallı, Cəlilabad və s. regionlarda açıq sahədən yığılan pomidorlardır".

Eyyub Kərimli

Nicat Quluzadə



AZPROMO YENİ İXRAC BAZARLARI AXTARIR

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-dan bildirildi ki, onlar Azərbaycanın xaricdə fəaliyyət göstərən Ticarət evləri və nümayəndələri tərəfindən qeyri-neft məhsullarının ixracı üçün yeni bazarların tapılması və ya ixrac coğrafiyasının diversifikasiyası istiqamətində işləri davam etdirirlər. Xarici ölkələrin şəbəkə marketləri ilə məhsullarımızın satışı məsqsədi ilə əlaqələr qurulub, meyvə-tərəvəz idxalçıları ilə danışıqlar aparılıb və yerli şirkətlərimizlə əlaqələndirilib: "Bundan başqa, ixrac potensialının artırılması və yeni ixrac bazarlarının əldə edilməsi üçün "Global Gap" sertifikatının alınması xüsusi əhəmiyyət kəsb edir ki, sözügedən sertifikatın alınmasında da AZPROMO tərəfindən ixracatçılara müvafiq dəstək tədbirləri göstərilir. Həmçinin, ixracatçılarla mütəmadi görüşlər keçirilir, göstərilən dəstək tədbirləri, konsiqnasiya üsulu ilə ixrac olunmuş məhsulların dəyərinin ölkəyə gətirilməsi, ticarət qanunvericiliyinin tələblərinə əməl edilməsi və bu kimi məsələlər üzrə maarifləndimə işləri aparılır. Yerli pomidor istehsalçılarımız üçün yeni ixrac bazarlarının qurulması istiqamətində işlər davam etdirilir".

POLŞAYA POMİDOR SATIŞIMIZ ARTIR

AZPROMO-dan o da bildirilib ki, bu istiqamətdə ilkin nəticələr də var. Məsələn, hesabat dövründə Rusiya istisna olmaqla, digər ölkələrə pomidor ixracında əhəmiyyətli dərəcədə artım qeydə alınıb: "Məsələn, Polşaya son altı ayda dəyəri 1,183 mln. ABŞ dollarından çox olan 846 ton pomidor ixrac edilib ki, bu da illik ifadədə müvafiq olaraq 4,9 dəfə və 5,2 dəfə artım deməkdir. Bu ölkəyə ixrac edilən məhsulun satışı tək Polşada deyil, digər Avropa ölkələrində də təşkil olunur.

Hazırda Azərbaycanın əsas ixrac bazarı Rusiyadır. Bu ilin yanvar-iyun aylarında Azərbaycandan Rusiyaya dəyəri 116,2 mln. ABŞ dollarından çox olan 105,4 min tondan artıq pomidor ixrac edilib. Ümumiyyətlə, bu ilin yanvar-iyun aylarında Azərbaycanın 73 sahibkarlıq subyekti Rusiyaya pomidor ixrac edib".

“Əbədi şəhər”ə SƏYAHƏT

Roma bir neçə min il əvvəl insanların necə yaşadığını öz gözlərinizlə görə biləcəyiniz muzey, hər küncdə heyrətamiz attraksionlar təklif edən bir şəhərdir. Burada “Top-10”-luqda olan görməli yerlər var ki, onlarla mütləq yaxından tanışlıq lazımdır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Romanın Leonardo da Vinçi adına Fiumicino Hava Limanından “Termini”yə (dəmiryolu və avtobus vağzalı) “şatl buslar”, metro və gecə avtobusları müntəzəm işləyir. Qiymətlər ucuz olmasa da, paytaxta gələn turistlərin istənilən nəqliyyat növü ilə şəhər mərkəzinə 40 dəqiqəyə rahat çatmaq və qayıtmaq imkanı var. Hotel transferi və ya taksi ilə mərkəzə qiymətlər standartdır: 50 avro (93.37 AZN). Axşam saatlarında nəqliyyat müntəzəm olmadığından sərnişinlər saat 00.00-dək gecə qatarından (15 avro) istifadə edirlər.

İtaliyanın paytaxtında metro çox sadə və rahatdır. Cəmi iki metro xətti çəkilib. Bu, Romanın altında çox qədim qəbirlərin - katakombaların olması ilə əlaqədardır. 150-170 kilometrə qədər uzanan yeraltı keçidlərin labirintləri içərisində dəfnlər üçün taxçalar düzəldilib. Avtobuslara da “metrobus” biletləri (1.30 avro) ilə minmək mümkündür. Roma City Pass (32 avro) kartları nəqliyyatdan limitsiz istifadə və bir sıra muzeylərə ödənişsiz daxil olmaq üçün daha sərfəlidir.

ƏVVƏLKİ DÖVRÜN ABİDƏLƏRİ VƏ BƏNZƏRSİZ MEMARLIQ

Aeroportdan çıxdıqdan sonra keçidlərdən keçərək 3-cü platformadakı kassadan aldığım biletlə (8 avro) “şatl bus”a otururam. Avtobusdakı azərbaycanlı tələbə ona baş çəkməyə gələn ata-anasına yolboyu şəhəri göstərir: “Burada hər yerdə Roma imperiyasının qalıqlarını görəcəksiniz!”

Həqiqətən də ətrafda eramızdan əvvəlki dövrün abidələrinin və bənzərsiz memarlığının əzəmətini müşahidə edirəm. Qədim binalar, köhnə, uçuq divarlar, körpülər, məbədlər və s. tikililər dünyanın ən güclü imperiyalarından birinin yaranmasına, yüksəlişinə və süqutuna şahidlik edib, elmdə, incəsənətdə və ədəbiyyatda əbədi olaraq parlaq iz qoyub.

MİN İLLƏR ƏVVƏLİ GÖSTƏRƏN QALIQLAR

Roma bir neçə min il əvvəl insanların necə yaşadığını öz gözlərinizlə görə biləcəyiniz muzey, hər küncdə heyrətamiz attraksionlar təklif edən bir şəhərdir.

Təxminən 3000 ildir mövcud olduğu üçün “Əbədi şəhər” adlanır. İsti yay günündə şəhərlə ən yaxşı tanışlıq tur avtobusları ilə gəzməkdir. Müxtəlif xətlər üzrə hərəkət edən “Hop on-Hop off” avtobusları gün ərzində (25 avro) istənilən yerdə düşüb-minmə imkanı da verir. Həmçinin Romanın bütün məşhur yerlərinə biletləri əvvəlcədən - internet vasitəsilə almaq endirim şansından əlavə, uzun-uzadı növbələrdə dayanmaqdan xilas edir.

Federiko Fellininin “Roma” filmindəki kimi fəvvarələri, Tiber çayını və sahilindəki Sant-Anjelo qəsrini, Santa Mariya bazilikasını, Sesiliya Metella məqbərəsini, İtaliya Forumunu, Piazza del Popolonu, Vittorio Veneto küçəsini, Kolizeyi, Kapitol meydanını və bir çox digər attraksionları seyr etdikcə rejissorun sevgisini anlayırsan. Teatr binaları, qədim kilsələr, muzeylər, zəfər tağları və sütunları, məbədlər və şəhər villalarının qalıqlarının əzəmətini demək olar ki, hər addımda seyr etmək olur. Onların xarabalıqlarından 3000 il əvvəl Roma İmperiyasının paytaxtının necə göründüyünü təsəvvür etmək çətin deyil.

BUMBUZ KƏHRİZLƏR ŞƏHƏRİ

İtaliyanın başqa şəhərlərində olduğu kimi, Romada da qədim su kəmərləri vasitəsilə axan bulaq suyundan həm turistlər, həm də şəhər sakinləri istifadə edirlər. Bumbuz kəhrizlərə yollarda tez-tez rast gəlmək olur.

Romada “Top-10”-luqda olan görməli yerlər var ki, onlarla yaxından tanış olmalısan.

ROMAYA HƏDİYYƏ OLUNAN PARK

17-ci əsrdə kardinal Scipione Borghese tərəfindən yaradılan park 1903-cü ildə dövlət tərəfindən satın alınaraq şəhərə hədiyyə edilib. İndi burada nəinki qədim heykəllər arasında kölgəli xiyabanlarda gəzmək, həm də qayığa minmək, at sürmək, fəvvarələrə və keçmiş Roma papalarının yay iqamətgahlarına heyran olmaq, bir sıra sənət qalereyalarını və muzeyləri ziyarət etmək olur.

İTALİYANIN MİQRANT PROBLEMİ

Roma tarixi simasına baxmayaraq miqrantların, evsiz-eşiksiz insanların küçələrdə yatdığı şəhərdir. Mərkəzi meydanlarda, metroların qarşısında, vağzalların ağzında evsiz-eşiksiz insanlara rast gəlirsən. Balaca çadırlarda gecələyənlər də var. Onların çoxu dəniz yolu ilə İtaliyaya salamat gəlib çıxan miqrantlardır. Əksəriyyəti Afrikanın böyük səhraaltı ölkələri, Ərəbistan yarımadası, Misir, Suriya və Banqladeşdəndir. Yerli əhali onlardan narazıdır.

Romada nə görmək haqqında klassik suala yalnız bir düzgün cavab var: “Hər şey”. Ancaq təəssüf ki, bunun üçün sadəcə kifayət qədər vaxt yoxdur. Sehrli “Əbədi şəhər”də gəzintilərin kaleydoskopu zamanı həqiqətən maraqlı bir yerin yanından tələsməmək üçün, hətta səfərdən əvvəl mədəni proqram planlaşdırmaq lazımdır.

HƏR İL BEŞ MİLYON İNSANIN ZİYARƏT ETDİYİ QƏDİM KOLİZEY

Qədim Romanın simvolu olan Kolizey belə yerlərdəndir. Hər il təxminən beş milyon insan amfiteatrı ziyarət edir. Abidə ilə yaxından tanışlıq üçünsə uzun-uzadı növbədə durmaq lazım gəlir. Kolizey dünyanın ən böyük qədim amfiteatrıdır. Bilet (17 avro) həmçinin abidənin içərisinə daxil olmağa və ətrafdakı Roma Forumunun qalıqlarına və Palatine təpəsinə baxmağa imkan verir. Kolizeyin arenasında dəbdəbəli şənliklər və teatr tamaşaları keçirilib, qladiatorlar döyüşüb və həlak olub. Fövqəladə vəziyyətdə təxminən 55 min tamaşaçı Kolizeyi 5-10 dəqiqəyə tərk edə bilərmiş. Bu illər ərzində dünyanın heç bir yerində belə tutumlu attraksion tikilməyib.

315-ci ildə ucaldılan “Konstantinin Zəfər Tağı” da Kolizeyin yaxınlığında yerləşir. Bu, Romanın sonuncu zəfər tağıdır.

Romanın möhtəşəm memarlıq bəzəyi olan “Trevi fəvvarəsi” (Fontana di Trevi) şəhərdə bir nömrəli attraksion adı uğrunda Kolizeylə ciddi rəqabət aparır.

Turistlər Romanın yaşıl nəfəsi sayılan “Villa Borghese” bağına səyahət etməyi xüsusi sevirlər. Məşhur ispan pilləkənləri “Villa Borghese”ə aparır .

“TƏBLİĞAT KEÇMİR, CƏZA LAZIMDIR”

İllər keçir, piyadaların ölümü və ya xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı azalmır. Ekspertlər deyir ki, bunun əsas səbəbi piyadaların məsuliyyətsizlikləri ilə bağlıdır. Təcrübə göstərir ki, piyadavurma hallarının əhəmiyyətli faizi yeraltı və yerüstü piyada keçidlərinin yaxınlığında baş verir.

AYGÜN ASİMQIZI
aygunasimqizi@kaspi.az

Hər gün piyadaların ölümü, yaxud xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi barədə xəbər qarşımıza çıxır. Bəzi günlər 4-5 belə hadisə baş verir. Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, 2022-ci ildə 683 piyadavurma hadisəsi qeydə alınıb. Bu hadisələr zamanı 64 nəfər həyatını itirib, 369 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb. 2021-ci ildə 721, 2020-ci ildə isə 664 belə hadisə baş verib. Yəni ciddi azalma yoxdur. İllərdir bu problem var və həlli üçün çalışılır, bəs niyə ciddi azalma getmir?

ƏSAS SƏBƏB İNSANLARIN TƏHLÜKƏSİZLİK QAYDALARINA LAQEYD YANAŞMASIDIR

Nəqliyyat eksperti Elməddin Muradlı deyir ki, əsas səbəb insanların öz həyatına laqeyd yanaşmasıdır: “Əvvəllər piyadalarla bağlı vəziyyət bərbad idi, keçidlər zəbt olunmuşdu. İndi də bu hallar var, amma əvvəlki illərə baxanda, piyadalar üçün şərait indi yaxşıya doğru gedir. Müəyyən işlər görülür, amma yenə də piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələri çoxdur. Burada birinci səbəb insanların təhlükəsizlik qaydalarına, öz həyatlarına laqeyd yanaşmasıdır. Televiziyada, radioda, sosial şəbəkələrdə aparılan təbliğatı sanki görmürlər, yaxud görürlər, amma diqqət etmirlər”.

Ekspert piyadalara nəzarətin gücləndirilməsinin tərəfdarıdır: “Son vaxtlar piyadalara nəzarət bir xeyli zəifləyib. Cəzalanan piyadaların sayı azalıb. Hətta keçidlərin yaxınlığında belə, keçiddən istifadə etmirlər. Nəzarəti gücləndirmək lazımdır. Sürücü, piyada olaraq mental düşüncəmiz budur, nəzarət, cəza olmasa, biz qaydalara əməl etmirik”.

Elməddin Muradlı

“DEYİR Kİ, CAN MƏNİMDİR, ÖZÜM BİLƏRƏM”

E.Muradlı deyir ki, aidiyyəti qurumlar da bəzən məsuliyyətsizlik edirlər və bu da piyada ölümünə səbəb olur: “Məsələn, hansısa ərazidə 10-15 adam öləndən sonra həmin ərazidə piyada keçidi tikirlər. Buzovnada, Qaradağ ərazisində indi piyada keçidi tikilir. Neçə nəfər orada ölür, insanlar müraciət edirlər, aylar, illər keçir, sonra piyada keçidi qoyurlar. Aidiyyəti qurumların məsuliyyəti, ciddiyyəti olmalıdır. Həmin qurumların fəaliyyətinə ciddi nəzarət olmasa, onlar yenə də bu cür məsuliyyətsizliklərini davam etdirəcəklər. Piyada keçidi təhlükəli yerlərdə vaxtında tikilməlidir ki, ölümlərin qarşısı alınsın”.

Ekspert qeyd etdi ki, təbliğat işləri ilə insanları maarifləndirmək lazımdır: “Qabaqlayıcı tədbirlər sırasında təbliğat və nəzarət mexanizminin olması çox vacibdir. Təbliğat şüurlu insanların daha yaxşı düşünməsinə imkan verir. Amma adam var “Keçiddən keç” deyəndə, “Buradan keçirəm də” cavabı verir. Deyirsən ki, “Kəmər tax”, deyir ki, “Can mənimdir, özüm bilərəm”. Bunlara təbliğat keçmir, cəza lazımdır”.

“MÜTLƏQ 60-LA GETMƏLİ DEYİLSƏN AXI...”

Baş Dövlət Yol Polisi İdarəsinin rəsmisi, polis polkovnik-leytenantı Mübariz Ağayev də deyir ki, piyada məsuliyyətsizliyi birinci yerdədir: “Piyadavurma hallarının əhəmiyyətli faizi yeraltı və yerüstü piyada keçidlərinin yaxınlığında baş verir. Keçid yaxındadır, amma piyada ondan istifadə etmir. Bu qədər deyirik, göstəririk, təbliğat aparırıq, maarifləndiririk, dövlət proqramı icra edirik. Soruşanda, “Bilirəm” deyir. Soruşuruq ki, bəs niyə qaydanı pozursan? Deyir ki, “Tələsirdim, həmişə keçdiyim yoldur” və s. Bəzən isə haqlı olaraq piyada deyir ki, keçid məndən 1 kilometr uzaqlıqdadır, bir çörək almaq üçün 2 kilometr yol getməliyəm, halbuki buradan tez keçirəm. Piyadalar üçün yol infrastrukturunun əlçatan olmaması, şəhərimizin piyadayönümlü olmaması da faktordur”. M.Ağayev bildirdi ki, sürücülərin də məsuliyyətsizlik etdiyi məqamlar var: “Sürücülərin burada əsas rolu sürət, səhlənkarlıq, etinasızlıq, qanunsuz nəqliyyat vasitəsi idarə edilməsi halları və s.-dir. Əsas sürətdir. Sürücü deyir ki, burada “60” yazılıb, sürmüşəm də. Yer buzdursa, qar yağırsa, hava dumanlıdırsa, göz-gözü görmürsə, mütləq 60-la getməli deyilsən axı. Sürücüsən, bilməlisən ki, dağlıq relyefdir, meteoroloji şərait imkan vermir, yol örtüyü əlverişli deyil, sıxlıq var və s. Risklər var, bunları nəzərə almalısan. Sürəti elə təyin etməlisən ki, ani baş verəcək hadisənin qarşısını ala biləsən. Yaxud, adam sərxoşdur, sürücülük hüququ yoxdur, etibarnaməsi yoxdur, amma baxırsan, nəqliyyat vasitəsi idarə edir. Polisdən qaçır, sərxoş idarə edir, başqa maşınlar, piyadalar üçün təhlükədir”.

BİLİR, AMMA ŞƏXSİ NÜMUNƏ GÖSTƏRMƏK İSTƏMİR

M.Ağayevin sözlərinə görə, bir qisim insan yol hərəkət qaydaları ilə bağlı məlumatlı olsa da, onun tətbiqində maraqlı deyil: “Bilir, amma şəxsi nümunə göstərmək istəmir. Uşaq Gənclər Mərkəzi ilə bizim əməkdaşlığımız var, orada dərnəklərdə maarifləndirmə aparırıq. Oradan çıxan uşağı valideyni gəlib götürür. Yol keçəndə uşaq deyir ki, qanunsuzdur, buradan keçmək olmaz. Çünki məktəbdə öyrənib. Ana tələsdiyi üçün uşağı dartır ki, gəl buradan keçək. Uşaq müəllimdən eşitdiyini həm də yaxınlarında, cəmiyyətdə görməlidir ki, onda da vərdiş yaransın”. Qurum rəsmisi deyir ki, piyadaların qaydalara riayət etməməsi ilə mübarizədə cərimə tətbiqi həmişə effektiv olmur: “Birincisi, qayda pozanların əksəriyyəti tələbə, təqaüdçü olur. Onlara tətbiq olunan cərimələrin ödənilməsində problem yaranır. İkincisi, daxili işlər orqanlarının idarəetməsində cəza təhdidi altında nəzarət tədbirlərinə meyillilik yoxdur. Biz piyadanı cəza tədbiri altında intizama dəvət etməyə maraqlı deyilik. Cəza son həddir. Biz onun tərəfdarıyıq ki, insanlar məsuliyyətlərini dərk etsinlər, öz sağlamlıqları üçün bunu etməyin vacib olduğunu bilsinlər. Ona görə də maarifləndirməyə üstünlük veririk. Yəni, insan özü məsuliyyətli yanaşmırsa, sağlamlığına biganə qalırsa, çətindir. Hər kəsin yanına bir polis əməkdaşı qoymaq mümkün deyil”.

Mübariz Ağayev

ÇİMƏRLİK OĞRULARINDAN NECƏ QORUNMALI?

Yay aylarında insanların ən çox üz tutduğu yerlərdən biri də çimərliklərdir. Bundan istifadə edən oğrular da bu ərazilərdə fəallaşırlar. Xoş istirahətdən sonra "paltarsız" qalmamaq, telefonu, pulları itirməmək üçün diqqətli olmaq lazımdır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Külək imkan verəndə Bakı çimərlikləri istirahətə gələnlər, günəş vannası qəbul edənlər, üzmək, əylənmək istəyənlərlə dolu olur. Ancaq istirahət edərkən şəxsi əşyalara diqqət yetirmək lazımdır, çünki çimərliklərdə oğurluq geniş yayılıb. Təbii ki, xoş istirahətdən sonra "paltarsız" qalmamaq üçün qiymətli əşyaları harada gizlətmək barədə əvvəlcədən düşünmək daha yaxşıdır. Çünki, cibgirlər və oğrular çimərliklərə potensial "yem mənbəyi" kimi baxırlar.

Polis hər il çimərliklərdə oğurluq hadisələri ilə bağlı onlarla məlumat alır. Amma zərərçəkənlərin ümumiyyətlə, hamısının polisə müraciət edib-etmədiyi məlum deyil. Oğrular adətən şəxsi əşyaları, pulları və ya ağıllı cihazları oğurlayırlar. Bir qayda olaraq, oğurluğun qurbanları çimərlikdə əşyalarını unudan və ya nəzarətsiz qoyan insanlardır.

DÜNYA ÇİMƏRLİKLƏRİ DƏ SIĞORTALANMAYIB

Bəs insanlar əşyalarının oğruların şikarına çevrilməməsi üçün nə etməlidirlər?

Tərtəmiz firuzəyi suları, qızılı qumları ilə dünya turistlərini cəlb edən İtaliya çimərlikləri də oğrulardan sığortalanmayıb. Bu ölkədə turistlərə və yerli sakinlərə əsasən ödənişli çimərliklərdə çimməyi məsləhət görürlər. Çünki ətrafda xeyli miqrant vurnuxur...

Estoniyanın rəsmi çimərliklərində adətən xilasedicilər olur. Lakin onların səlahiyyətlərinə oğruları izləmək və saxlamaq daxil deyil.

Xilasedicilər şəxsə irad bildirə və lazım gələrsə, polis patrulu çağıra bilərlər. Çimərliyə gələnlər oğrunu özləri görsələr, polisə müraciət etməlidirlər. Ölkədə oğurluğa qarşı profilaktik tədbir olaraq suya davamlı çantalardan istifadə edirlər ki, onlara həm pul, həm də telefon qoymaq olur. Əgər heç bir seçim yoxdursa, tətilə gələnlər qoruyucu çantada əşyaları özləri ilə suya apara bilirlər. Məsələn, qadjetlər üçün xüsusi qoruyucu örtüklər bilək və ya boyun nahiyəsinə yapışdırılır. Satışda qumda basdırmaq üçün əlverişli olan seyflər də var. Avtomobili ilə çimərliyə gələnlərə əşyalarını maşının içərisində görünməyən yerdə saxlamaq məsləhət görülür.

Əşyaları saxlamaq üçün ağlagəlməz yerlərdən istifadə edənlər də az deyil. Məsələn, telefonu uşağın nahar yeməyinin qutusuna, pulu isə köhnə günəş kremi şüşəsinə qoyanlar, bəzi qiymətli əşyaları körpə bezində gizlədənlər də var.

Təcrübəli insanlar ən qiymətli əşyaları qoruyucu çantaya qoyduqdan sonra sadəcə basdırırlar. "Çantanı basdırın, üstünə çimərlik dəsmalı, flip-flop və ya başqa bir şey qoyun. Heç kim qiymətli bir şey axtarmaq üçün sahili qazmayacaq. Yaxşı olar ki, "dəfn" yerini bir sıra digər tanınma işarələri ilə – sütun, skamya, kabin, daş və s. ilə işarələyin", - deyə Sahil Təhlükəsizlik Xidmətinin əməkdaşları məsləhət görürlər.

"GÖZƏGÖRÜNMƏZ" OLMAQ MƏSLƏHƏT GÖRÜLÜR

Çimərlikdə oğurluqdan qorunmağın başqa bir profilaktik üsulu "gözəgörünməz" olmaqdır. Yəni, çimərlik oğruları bir insanın xarici görünüşünə baxır və nə qədər varlı olduğunu - riskə getməyin onlar üçün sərfəli olub - olmadığını qiymətləndirirlər. Brend markaların paltarları və ayaqqabıları, bahalı zinət əşyaları və aksesuarları olan insanlar özlərinə diqqət çəkirlər.

"İNSANLAR EHTİYATLARINI SAXLAMALIDIRLAR"

Təhlükəsizlik üzrə ekspert Elmar Nurullayev çimərliklərdə oğurluq hallarının olduğunu təsdiqləyir: "İnsanlar çimərliyə gəlir və öz qiymətli əşyalarını - mobil telefonunu, pul qabını və s. nəzarətsiz qoyurlar. Bu zaman təbii ki, oğurluq halları baş verir. Xidmət olan çimərliklərdə istirahətə gələnlər qiymətli əşyalarını təhvil verirlər". Ekspert məsləhət görür ki, insanlar özləri ehtiyatlarını saxlamalıdırlar. Onlar qiymətli əşyalarını nəqliyyat vasitələrinin içərisinə, görünməyən yerə qoya bilərlər ki, diqqəti cəlb eləməsin: "Oğurluğu qarşısına məqsəd qoyan adamlar nəzarətsiz əşyaları oğurlamaq fürsətini əldən verməyəcəklər. Burada əsas məsuliyyət vətəndaşların üzərinə düşür. Təbii ki, həmin ərazilərdə xidmətdə olan polislərin, xilasedicilərin diqqətini çəkəndə tədbir görürlər. Yaxşı olar ki, vətəndaşlar şübhələndikləri şəxsləri görəndə vaxtında məlumat versinlər. Bu, nisbətən vəziyyətin qarşısının alınmasına kömək edər".

"BİR DAHA VƏTƏNDAŞLARIMIZDAN XAHİŞ EDİRİK Kİ..."

Daxili İşlər Nazirliyinin (DİN) polislərin çimərliklərdə gücləndirilmiş iş rejiminə keçməsi ilə bağlı məlumatı da, təbii ki, baş verən analoji hadisələrin qarşısını almağa və insanların təhlükəsizliyinə yönəlib. "Vətəndaşlarımızın təhlükəsizliyinin, onların rahat istirahətinin təmin edilməsi daxili işlər orqanları əməkdaşlarının daim diqqət mərkəzindədir", - deyə DİN-in Mətbuat Xidmətinin bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynov sualımıza cavab olaraq bildirdi: "Həftə sonu vətəndaşlarımızın çimərlik zonaları istiqamətinə kütləvi hərəkətini nəzərə alaraq həmin ərazilərdə polis əməkdaşları tıxacların yaranmaması üçün avtomobillərin hərəkətini tənzimləyir, istirahətdə olan vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün gücləndirilmiş iş rejimində xidmət aparırlar. Təəssüf ki, bəzən vətəndaşlarımız çimərlik zonalarında şəxsi əşyalarını - pul, bank kartları və mobil telefonlarını nəzarətsiz qoyurlar. Ümumiyyətlə, oğurluq hadisələri ilə bağlı daxil olan müraciətlərlə əlaqədar dərhal müvafiq araşdırmalara və əməliyyat-axtarış tədbirlərinə başlanılır". DİN rəsmisi vətəndaşlara səslənərək onları ayıq-sayıq olmağa çağırdı: "Bir daha vətəndaşlarımızdan xahiş edirik ki, istirahət zonalarında pul və qiymətli əşyalarını nəzarətsiz saxlamasınlar, hansısa neqativ halla üzləşsələr dərhal ərazidə xidmət aparan polis əməkdaşlarına məlumat versinlər".

BAL HƏM AZ OLACAQ, HƏM DƏ BAHA

Hava şəraitinin qeyri-sabit keçməsi arıçılıq təsərrüfatına mənfi təsir göstərib. Bu il bal yığımında xeyli azalma müşahidə edilib. Ekspertlər düşünür ki, bu vəziyyət arıçılıq məhsullarının, xüsusilə də balın qiymətinin artmasına səbəb olacaq.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu il yaz-yay aylarında hava şəraitinin soyuq və yağıntılı keçməsi arıçılığa mənfi təsir göstərib. Belə ki, yağıntılı hava şəraitinə görə arıların nektar toplaması gecikib. Hazırda bal süzümü mövsümü başlasa da, arıçıların bir çoxu hələ bu prosesə start verməyib. Hətta, bəziləri bu il arılardan bal götürə bilməyəcəyi qənaətindədirlər. Arıçılar narahatdırlar. Əgər normal məhsul götürülə bilməsə, qıtlıq yarana bilər. Bu, bal qiymətlərinə necə təsir edəcək?

MƏHSULDARLIQ KEÇƏN İLİN 40 FAİZİ QƏDƏRDİR

Azərbaycan Arıçılar Assosiasiyasının İdarə Heyətinin üzvü Elvin Bayramlı deyir ki, bu il arıçılıq təsərrüfatında vəziyyət ürəkaçan deyil: "Artıq arıçılıqda mövsümün sonuna gəlirik. Yaz və yay ayları havalar anomal keçib. Bu da arıçılar üçün faciəvi vəziyyətə səbəb olub. Bəzi arı ailələri yem gətirə bilmir və acından ölürlər. Statistikada ümumi rəqəmləri deyirlər. Bu il keçən ilki bal yığımının 40 faizi qədər məhsul toplanılıb. Əslində toplanan bal bu rəqəmlərdən də azdır".

PROQNOZ DEYİL, REALLIQDIR

E.Bayramlının sözlərinə görə, bundan sonra məhsul olacağı gözlənilmir: "Arıçılarımızın ağlına da gəlmirdi ki, belə pis il ola bilər. Mövsümün də artıq sonudur. Aşağı rayonlarda bal bundan sonra çətin ki, tapıla. Onsuz da, 1-2 ədəd bal verən bitki qalıb. Kəlbəcər, Laçın zonasında da indiyə kimi heç nə olmadı, bundan sonra olsa da, çox cüzi yığıla bilər. O da, ümumi məhsul yığımının yerini doldurmayacaq. Bu il üçün daha çox qıtlıq, arı ölümləri, bal çatışmazlığı gözlənilir. Bu proqnoz deyil, reallıqdır. Çünki, bütün rayonlarımızdakı arıxanalarda vəziyyət bərbaddır. Səbəb tək qeyri-sabit hava şəraiti deyil. Bir neçə faktor üst-üstə düşür, ona görə bu il arıçılar əliboş qalıb".

CƏNUB ZONASINDA İTKİLƏR DAHA ÇOX OLACAQ

Ekspert bildirdi ki, arıçılıqdan başı çıxmayan insanların itkiləri daha çox olacaq: "Qeyri-peşəkar arıçılar, maddi imkanları, arıları zəif olanlar çox ciddi zərər görəcək. Onların arılarının da çoxu tələf olacaq. Ən yaxşı halda borc-xərc tapıb arılarına şəkər verəcəklər ki, heç olmasa gələn ilin mart, aprel ayına kimi sağ qalsınlar. Bunu da bir çox arıçılar bilmir. Bəzilərinin isə maddi imkanı yoxdur. Bəzi insanlar arını təbiətə buraxır və onunla maraqlanmır. Belə olan halda arılar təbii ki, qırılacaq. Bəzi zonalarımızda isə arı sayı çoxdur. Buna görə də xüsusilə cənub zonasında itkilər daha çox olacaq".

BALIN QİYMƏTİ 10 MANAT BAHALAŞACAQ

E.Bayramlının fikrincə, ən son belə hal müstəqillik dövründən əvvəl müşahidə edilib: "Belə hal yaxın dövrlərdə olmayıb. Bəlkə də çox-çox əvvəllər ola bilər. Amma müstəqillik dövründən bəri belə qıtlıq müşahidə edilməyib. Bu qədər pis vəziyyət birinci dəfədir ki, yaşanır. Olsa belə, kütləvi şəkildə bütün rayonları əhatə etməyib. Məsələn, bir zonada olurdu, digərində olmurdu. Amma bu il xırda nüansları çıxmaq şərti ilə ölkənin heç bir yerindən gəlir əldə edilmədi".

Elvin Bayramlı

Ekspert qeyd etdi ki, arıçılar da qiyməti qaldırmaqdan məmnun deyil, amma məcburdurlar: "Çox güman ki, balın qiyməti qalxacaq. Amma qalxmamalı idi. Çünki, Qarabağ zonasındakı ərazilərimiz azad olunub, yem bazası genişlənib. Buna görə daha çox bal götürmək imkanımız olacaqdı. Məhsulun bol olması balın bahalaşmasının qarşısını alacaqdı. Amma, bu il məhsuldarlıq az olduğuna görə balın qiymətinin 10 manat bahalaşacağı gözlənilir. Qiymətin bahalaşması bal satanlar üçün də ziyandır. Çünki onların da öz müştəriləri var. İnsanlara vəziyyəti necə izah etsinlər? Ya arı təsərrüfatları məhv olmalıdır, ya da balın qiymətini qaldırmalıdırlar ki, gələn ilin may ayına kimi həyatda qala bilsinlər".

VƏZİYYƏT NƏ ZAMAN DÜZƏLƏCƏK?

İqtisadçı Cəfər İbrahimli isə bildirdi ki, sonrakı illərdə hava şəraiti yaxşılaşsa, vəziyyət də düzələ bilər: "Bir ay hava yaxşı keçməyib, arı balı az yığıb deyə demək olmaz ki, mövsüm boyu belə olacaq. Düzdür, qeyri-sabit hava şəraiti ilə əlaqədar məhsuldarlıq əvvəlki illərlə müqayisədə aşağı ola bilər. Amma həm də Aran rayonlarında daha sonrakı dönəmlər üçün vəziyyətin yaxşılaşması gözlənilir. Əgər hava şəraiti bundan sonrakı dönəm üçün arı ailələrinin sayının azalmasına, ölüm hallarına gətirib çıxarmayacaqsa, vəziyyət düzələcək. Arıçılıq elə bir sahədir ki, "Bir ay sonra daha yaxşı olacaq" demək də çətindir. Çünki, bəlli bir mövsüm var ki, nektarı toplamaq lazımdır. Onu toplaya bilmirlərsə, növbəti ilə qalır. Ona görə vəziyyətin düzəlməsi gələn ilə də qala bilər. Məhsuldarlıq aşağı olsa, qiymətin qalxmasına təsir edəcək. Amma son 5-6 il çox məhsuldar olub". İqtisadçının fikrincə, balın qiymətinin qalxması qıtlıqla əlaqədar olmayacaq: "Qiymətlərə daha çox təsir edən faktor inflyasiyadır. Yəni, qiymət artımı inflyasiya səviyyəsində olacaq".

Cəfər İbrahimli

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Siyasət şöbəsi – **Bəxtiyar Məmmədli**
Beynəlxalq siyasət şöbəsi – **Azər Nuriyev**
Sosial həyat və gənclik şöbəsi - **Aygün Əziz, Zərif Salmanlı**
Mədəniyyət və ədəbiyyat şöbəsi – **Təranə Məhərrəmova,**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb,
səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1987
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÖZ TOYUĞUMUZ, YUMURTAMIZ YOXDUR?

Toyuq və yumurta istehsalı ilə məşğul olan şirkətlər ölkəmizə xaricdən məhsul gətirilməsinə etiraz edirlər. Ekspertlər isə bu qənaətdədirlər ki, idxala məhdudiyyət qoyulsa, quş əti məhsulları və yumurta bahalaşacaq. Tək istehsalçını yox, istehlakçını da nəzərə almalıyıq.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yerli quşçuluq sənayemiz problemlərlə üzləşib. Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası hökumətə müraciət edib. Belə ki, ölkəyə xaricdən 2-3 manata quş əti gətirilir. Həmçinin, yumurta da xaricdən idxal olunur. Bununla əlaqədar yerli istehsalçıların satışlarının məhdudlaşdığı qeyd olunub. Bildirilib ki, bütün bu məsələlər yerli istehsalımıza mənfi təsir göstərir. Belə davam edərsə, yerli quşçuluq sənayemizi nə gözləyir?

10-DAN ÇOX ÖLKƏYƏ YUMURTA İXRAC EDİRİK

"Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Mürvət Həsənli bildirdi ki, yerli istehsalda xeyli irəliləyiş mövcuddur: "Ölkədə tələbatın 130-140 faizi civarında süfrə yumurtası istehsalı var. Hətta süfrə yumurtasını Yaxın Şərq ölkələri, Əfqanıstan, İraq, İsrail, Qətər, Səudiyyə Ərəbistanı kimi 10-a yaxın ölkəyə ixrac edirik. Həmçinin, bazara kifayət qədər ucuz yumurta çıxarırıq. Keçən il 16 qəpiyə satılan yumurta, hazırda 12 qəpikdir. Bu, yemin qiymətinin aşağı düşməsi ilə bağlıdır. Damazlıq yumurta istehsalında isə tələbatımızın 100-105 faizi civarında istehsal gücünə malikik. Ölkədə hazırda toyuq saxlaya biləcək fermaların sayı 765-dir. Aylıq 15 min ton civarında quş əti istehsal edə bilərik. Bu halda illik istehsal 180 min tondur. Bizim ölkənin tələbatı isə 150-160 min tondur. 20 min ton artıq quş əti qalır. Yəni, quş əti istehsalında da heç bir problemimiz yoxdur".

YERLİ FABRİKLƏR SATIŞ PROBLEMİ YAŞAYIRLAR

M.Həsənlinin sözlərinə görə, bu qədər gücümüz olsa da, xaricdən gətirilən məhsullar yerli istehsalçılara mane olur: "Nəticədə istehsal gücümüzü azaldırıq. Səbəbi xaricdən gələn quş əti, damazlıq və süfrə yumurtalarıdır. Rusiya və Belarusun Avropaya çıxışının olmaması bu ölkələrdə yumurtanın qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olub. Onlar da bizim bazarda rəqabəti pozur. Maya dəyərindən aşağı qiymətə mal satılması yerli fabriklərin istehsalının zəifləməsinə gətirib çıxarır. Yerli fabriklər satış problemi yaşayırlar. Həmçinin, damazlıq və süfrə yumurtasının da istehsalı zəifləyib".

İXRAC ŞİRKƏTLƏRİ RÜSUMDAN NECƏ YAYINIR?

Sədr deyir ki, ixrac şirkətləri rüsumdan qaçmaq üçün müxtəlif yollara əl atırlar: "Xaricdən gələn yumurtaya 10 sent gömrük rüsumu var. Ancaq türk şirkəti rüsumu verməmək üçün yumurtanı Gürcüstanda inkubasiya edir və cücə şəklində Azərbaycana satır. Gürcüstan MDB ölkəsi olduğuna görə 10 sent gömrük rüsumundan azaddır. Gürcüstanda istehsal olunan yumurta özlərinin tələbatını qarşılaya bilmir. Amma Gürcüstan illik 40 milyondan çox yumurta ixrac edir".

ONLAR ÖZ DAXİLİ BAZARINI QORUYURSA, BİZ DƏ QORUMALIYIQ

M.Həsənli qeyd edir ki, bizim ixracla bağlı problemlər mövcuddur: "Belarus, Rusiya, Gürcüstana ixrac mümkün deyil. Satmaq istəyirik, lakin onlar bizim qarşımıza xeyli şərtlər qoyur. İşçinin, ailəsinin sertifikatı, yaxud bələdiyyənin, icra hakimiyyəti orqanının icazəsi kimi bəhanələr gətirərək, bizdən məhsul almırlar, amma bizə sata bilirlər. Onlar öz daxili bazarını qoruyursa, biz də qorumalıyıq. İstehsalçını qorumalıyıq ki, fabriklər rəqabətə davam gətirə bilsinlər".

Sədr bildirir ki, onlar Dövlət Gömrük Komitəsinə müraciət ünvanlayıblar: "10 sent rüsumu cücəyə də tətbiq etməlidirlər. Çünki bu, bizim bazarda böyük problemlər yaradır. Fəsadı 6 aydan sonra görünəcək. Əvvəl xaricdən asılılığımız yox idi. Asılılıq yaranmasın deyə, bu gün həyəcan təbili çalırıq. Çünki istehsalçılar bu vəziyyətə dözə bilməyəcək və idxaldan asılılıq yaranacaq. Dövlət xaricdən idxal olunan ətin, yumurtanın qarşısını müəyyən kvota ilə almalıdır. Xaricdən gətirməyə davam etsək, yerli istehsal fabrikləri dayanacaq. Dayanandan sonra həmin fabrikləri yenidən hərəkətə gətirmək çətindir".

Mürvət Həsənli

"HÖKUMƏTDƏN İXRACI SAXLAMASINI TƏLƏB ETMƏK DOĞRU DEYİL"

İqtisadçı Xalid Kərimli isə düşünür ki, istehsalçıların fikirləri birtərəflidir: "Əvvəl toyuq ətinin 1 kiloqramını 4-5 manata alırdıq. İndi isə 7-8 manatdan aşağı tapmaq mümkün deyil. Yumurta 10-15 qəpik idi, indi 20 qəpikdən yuxarıdır. Bu sektorda bahalaşma var. Amma xərclər də artıb. Lakin onları bu bahalaşma qane etmir. Dövlətə müraciət edərək qiymətləri daha da bahalaşdırmaq istəyirlər. Onlar deyir ki, yumurtanı 20 qəpiyə yox, 35 qəpiyə sataq. Toyuğun 7-8 manat olması onları qane etmir, 11-12 manata satmaq istəyirlər. Amma məsələnin ikinci tərəfi - alıcılar da var".

İqtisadçının fikrincə, onların hökumətə müraciət etməsi qiymətləri daha da bahalaşdıra bilər: "Hökumətdən ixracı saxlamasını tələb etmək doğru deyil. Hökumətin məqsədi odur ki, yerli istehsalı qorumaq şərti ilə, rəqabət şəraitində ədalətli qiymətlər müəyyənləşsin. İstehsalçılar yerli istehsalı ön plana çəkib əlavə dəstək istəyirlərsə, bu, qiymətlərin daha da bahalaşmasına səbəb ola bilər. Əgər hökumət onların dedikləri məhdudlaşdırmaları etsə, rüsumları artırsa, qiymətlər daha da bahalaşacaq. Baxmaq lazımdır ki, Azərbaycan tipli ölkələrdə toyuq, yumurta neçəyədir. Çünki Azərbaycandakı qiymətlər onsuz da bahadır".

XARİCİ ŞİRKƏTLƏR İŞLƏRİNİ DÜZGÜN HƏYATA KEÇİRMİRSƏ...

X.Kərimli düşünür ki, əgər xarici şirkətlər işlərini düzgün həyata keçirmirsə, yalnız o halda müdaxilə etmək olar: "Xaricdən bazara məhsul ixrac edən şirkət dotasiya, subsidiya alsa, qiymətləri bilərəkdən ucuzlaşdırsa, o vaxt bunu edə bilərlər. O halda şirkət xərclərin bir hissəsini aldığı pulla bağlayır və məhsulu daha ucuz qiymətə satır. Bu halda antidempinq gömrük vergiləri tətbiq etmək olar. Amma bu hal yoxdursa, hər hansı üstünlük tələb etməkdə haqlı deyillər".

UŞAQLARDA RAST GƏLİNƏN ALLERGİK HALLAR

Dünyada hər beş adamdan birində görünən allergik xəstəliklər onların həyat keyfiyyətinə təsir edir. Bəzi ağır hallarda allergiyanın anafilaksi kimi tanınan, həyati təhlükəli reaksiyaya səbəbolma ehtimalı da var.

SÖHBƏTLƏŞDİ

XANIM AYDIN
xanimaydin@kaspi.az

Bir çox insanları yaz-yay aylarında narahat edən əsas məqamlardan biri allergiyadır. Müsahibimiz uşaq allerqoloq-immunoloqu, uzman Röyalə Babayeva ilə allergiya, onu yaradan səbəblər və müalicə formaları haqqında söhbətləşdik.

ALLERGİYA VƏ YARANMA SƏBƏBLƏRİ

Röyalə xanım deyir ki, dünyada hər beş adamdan birində görünən allergik xəstəliklər onların həyat keyfiyyətinə təsir edir. Bu səbəbdən, qlobal əhəmiyyət verilən xəstəlik qrupları arasındadır: "Ölkəmizdə çiçək tozu və toz allergiyası, həşərat dişləməsi və müxtəlif qidalara qarşı allergiyaya çox rast gəlinir. Allergik xəstəliklər, əslində, bizim üçün yad olmayan cisimlərin, qidaların orqanizmimizdə yad cisim kimi qarşılanmasıdır. İmmunitet sistemi sözügedən allergen üçün antikorlar istehsal edir. İnsan allergenlə yenidən təmasda olduqda, bu antikorlar allergiya simptomlarına səbəb olan histamin kimi bir sıra immunitet sisteminə xas kimyəvi maddələr buraxır. Allergiya simptomları insanın tənəffüs yollarına, sinuslara və burun dəliklərinə, dərisinə, həzm sisteminə təsir göstərə, allergik reaksiyaların şiddəti yüngüldən ağıra qədər dəyişə bilir. Bəzi ağır hallarda allergiyanın anafilaksi kimi tanınan, həyati təhlükəsi olan bir reaksiyaya səbəb olmaq ehtimalı da var".

İLKİN ƏLAMƏTLƏR HANSILARDIR?

"Allergiya ilkin olaraq uşaqlarda ekzema ilə başlayır", - deyir həkim: "Bunu ana başlanğıcda uşağın üzündə qızarma ilə hiss edir. Daha sonra uşağın qollarına, bədəninə doğru yayıla bilər. Bu dönəmdə ilk şübhələrimiz ana südündəki kobud proteinlər (inək südü protein allergiyası və yumurta) üzərində dayanır. Uşaq böyüdükcə allergiya xırıltı, xışıltı, öskürək simptomları ilə irəliləyir. Bunlar sonradan bronxit və allergik astmaya çevrilir. Astmanın gecə boyu öskürək, nəfəs daralması, tez yorulma kimi əlamətləri var. Əvvəl bronxların tutulması, sonradan isə üst tənəffüs yollara keçməsi ilə inkişaf edir və böyüdükcə 6-12 yaşlarda allergik rinitə çevrilir. Allergik rinitdə, əsasən, uşağın burnunda axıntı, tıxanıqlıq, asqırma olur. Əgər uşağınız uzun müddət asqırırsa, üz formasında dəyişiklik (yəni bir qədər uzanıbsa) varsa, dərisində ekzema görürsünüzsə (quruluq), ağızdan pis iy gəlirsə, gözünün altında tünd rəng yaranıbsa, bu, artıq rinitin əlamətləridir".

ALLERGİK OLMA ŞANSI

"Uşaqda allergik xəstəlik olma şansı ana-atada allergik rinit varsa 50 faiz, valideynlərdən birində varsa 25 faiz, genetik yoxdursa, 13 faiz civarında ola bilər. Genetik faktordan başqa, çevrə amilləri də var. Buraya çirkli hava, ananın hamiləykən siqaret tüstüsünə məruz qalması və ya düzgün qidalanmama (fast-food, çips, şokolad və s.) daxildir. Bütün bunlar bizim tənəffüs yollarımızda sağalmayan xəsarətlər yarada bilir. Nəticədə, allergiyanın böyüyənə qədər bizimlə qalma ehtimalı var", - deyir Röyalə xanım.

> *Uşaqda allergik xəstəlik olma şansı ana-atada allergik rinit varsa 50 faiz, valideynlərdən birində varsa 25 faiz, genetik yoxdursa, 13 faiz civarında ola bilər. Genetik faktordan başqa, çevrə amilləri də var.*

MÖVSÜMİ XARAKTER DAŞIYAN ALLERGİYALAR

Həkim bildirir ki, uşaqlarda daha çox süd və yumurta allergiyalarına rast gəlinir: "Bununla yanaşı, məktəbəqədər yaşda uşaqlarda, əsasən, allergik astma yaranır ki, onun da səbəbi evdə olan tozlar, həmçinin ağacların, otların tozcuqlarıdır. Amma bu, mövsümi xarakter daşıyır. Məsələn, aprel-may aylarında ağac, may-avqust aylarında çayır, avqust-oktyabr aylarında otların tozlanması başlayır ki, bu da allergiyaya səbəb olur. Qida allergiyaları, əsasən, 4-5, allergik astmalar isə 13-14 yaşlarında keçib gedir. Daha çox rinit kimi burunda olan simptomlar qalır. Tozlu yerdə yüngül asqırmalar, burunda qaşıntılar, tıxanıqlıq kimi əlamətlər böyük yaşlarda az da olsa, qala bilir".

Fotolar: Rüfət Mikayılov/Global Media Group

"BUNLAR DƏYİŞMƏSƏ, UŞAQ DAVAMLI DƏRMANDAN ASILI OLACAQ"

Həkim allergiyanın başqa səbəblərindən də danışdı: "Evdə – mətbəxdə, hamamda, ayaqyolunda, xüsusən də kafellərin arasına dolan kif-göbələk də allergiya yarada bilir. Dərmanlara qarşı da allergiya olur. Buna daha çox böyük yaşlarda rast gəlinir. Bəzən əvvəldən allergiya verməyən dərman, sonradan allergiyaya səbəb olur. Məsələn, antibiotiklər yoxlanılmadan vurulmur. Yun tərkibli parçalardan tikilən geyimlərdən də allergiya yarana bilər. Yun özünə həmişə toz yığır. Bu cür xəstələrə biz pambıq parçadan geyimlər tövsiyə edirik. Geyim dəyişən kimi allergiya da keçib gedir. Həmçinin, astma xəstələri yun yorğan-döşəyi pambıq və ya sintifona dəyişilməli, evdəki xalçaları yığışdırmalıdırlar. Qalın pərdələr də jalüzlərlə əvəz olunmalıdır ki, uşaq düzgün nəfəs alsın. Əgər bunlar dəyişməsə, uşaq davamlı dərmandan asılı olacaq. Ona görə də, ilkin olaraq allergiyanı yaradan səbəbi ortadan qaldırmaq lazımdır. Həmçinin, konyunktiviti qeyd etmək gərəkdir. Bu, göz allergiyasıdır. Havada olan tozcuqlardan gözlər qızarır, sulanır və qaşınır. Bu, mövsüm dəyişikliklərində daha çox müşahidə olunur".

HANSI UŞAQLARDA PSİXOLOJİ ALLERGİYA YARANIR?

"Daha böyük uşaqlarda spontan övrə dediyimiz xəstəlik olur", bildirir həkim: "Bəzən uşaqların bədənlərində köpəşiklər əmələ gəlir. Gecələr yatmağa qoymur, çox qaşınır. Bunun səbəbi psixolojidir. Ana-atası ayrılan və ya yola getməyən, imtahana hazırlaşan, ailəsində ciddi problemi olan uşaqlarda rastlaşırıq, əsasən. Belə şeylər uşağın psixologiyasına təsir edir və gecələr qaşınmaya səbəb olan övrə yaradır. Allergik analizlərində heç bir şey çıxmır. Buna spontan övrə deyirik".

ANA UŞAĞA DAHA DİQQƏTLİ YANAŞMALIDIR

"Dəri və saç rəngi açıq olan uşaqlar daha həssasdırlar", - deyir Röyalə xanım: "Adi toxunanda belə qızartı qala bilir. Onlar allergiyaya daha çox meyillidirlər. Belə olduğu halda ana uşağa daha diqqətli yanaşmalı, hər yeni qidanı az miqdarda və başqası ilə eyni vaxtda verməməlidir. Orqanizmin qəbul etdiyi qidaya reaksiyasını müşahidə etməlidir. Amma bunu da bilmək lazımdır ki, uşaqda immun sistemi bir yaşından sonra formalaşır deyə, ona qədər yüngül allergiya verən qidalar 1 yaşından sonra reaksiya verməyə də bilər. Allergiyadan qurtulmaq üçün ən yaxşı vasitə ona səbəb olan qidanı rasiondan çıxarmaqdır".

ZƏLZƏLƏ PAMBIQÇILARIN İŞİNİ ÇƏTİNLƏŞDİRİB

"Ağ qızıl"ın istehsalı 2021-ci illə müqayisədə 2022-ci ildə artıb. Lakin bu ilin yanvar-may aylarının statistik göstəricilərinə əsasən, Azərbaycanın pambıq ixracı iki dəfədən çox azalıb. Ekspertlər bu azalmanı Türkiyədəki dağıdıcı zəlzələ ilə əlaqələndirirlər.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

XAM PAMBIĞIN ALIŞ QİYMƏTİ İKİ DƏFƏ ARTIRILIB

Azərbaycanın pambıq ixracı iki dəfədən çox azalıb. Bu ilin yanvar-may aylarında 68 milyon 874 min ABŞ dolları dəyərində pambıq ixrac edilib. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, bu, illik müqayisədə 2,2 dəfə azdır.

"Ağ qızıl"ın istehsalı isə keçən il 2021-ci illə müqayisədə artıb. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2022-ci il mövsümündə sahələrdən 322.300 ton pambıq yığılıb. Başa çatmış mövsümdə ölkədə 100 min hektardan artıq sahədə pambıq əkilib. 2021-ci il mövsümü ilə müqayisədə əkin sahələrinin həcmi dəyişməsə də, tarlalardan 35259 ton daha çox məhsul yığılıb. Ümumi məhsuldarlıq göstəricisi isə əvvəlki illə müqayisədə 2,42 sent/ha artıb. Görünən odur ki, istehsal çox, ixrac azdır. Bəs səbəb nədir?

Məlumat üçün bildirək ki, 2022-ci ildə xam pambığın alış qiyməti iki dəfə artırılıb. Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla artırılıb. 2021-ci ildə 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, 2022-ci il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilib. Fermerlər deyir ki, ötən ilin iyunundan dünya bazarında pambığın qiyməti ucuzlaşdığı üçün tədarükçü şirkətlər məhsulu satmır, bazardakı qiymətin artmasını gözləyirlər. Bəs mütəxəssislər nə deyir?

ZƏLZƏLƏNİN PAMBIQ İXRACINA VURDUĞU ZƏRƏR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin rəhbəri Nicat Hacızadə qəzetimizə açıqlamasında bildirdi ki, 2023-ci ilin yanvar-iyun ayları ərzində pambıq ixracı 49,8% azalaraq 68,7 milyon ABŞ dolları təşkil edib. Əsas səbəb isə Türkiyəyə ixracın azalmasıdır: "Azərbaycan pambığının mühüm hissəsi Türkiyəyə ixrac edilir. Türkiyədə iplik istehsalı ilə məşğul olan Kahramanmaraş zonasında müəssisələrin zəlzələ ilə əlaqədar dağılması pambıq ixracının azalmasına səbəb olub. Həmçinin, zəlzələ nəticəsində əmək qüvvəsində də ciddi problem yaranıb. Əmək qüvvəsinin bir hissəsinin vəfat etməsi, digərlərinin isə başqa şəhər və rayonlara köç etməsi işçi balansının pozulması ilə nəticələnib".

YERLİ İSTEHSAL, MƏZƏNNƏ, İNFLYASİYA...

Qurum rəsmisi vurğulayır ki, Türkiyənin özü də pambıq sektoruna investisiya qoyub. Yerli pambığın qiyməti məzənnə faktoruna görə, idxal edilən pambıq qiymətlərindən ucuz olduğu üçün sonuncuya tələbat aşağı düşüb: "Məzənnənin sabit olmaması və idxal olunan pambığı bahalaşdırması yerli sahibkarların satışına mənfi təsir göstərib. Bundan əlavə, inflyasiya faktoru ilə əlaqədar kredit faizlərinin yüksək olması da dağılmış müəssisələrin yenidən qurulmasını ləngidir. Baha faiz dərəcələri sahibkarlar üçün əlçatan olmadığı üçün onlar gözləmə mövqeyində dayanıblar. Buna baxmayaraq, alternativ bazarların axtarışı davam edir. Hazırda yerli sahibkarlar Banqladeş və Çin bazarı ilə maraqlanırlar".

Nicat Hacızadə

TƏLƏB OLUNAN STANDARTLARA CAVAB VERİRİKMİ?

İqtisadçı ekspert Elmir Səfərli isə pambığın ixracının azalmasını üç səbəbə bağlayır. Birinci səbəb, dünyada pambıqla bağlı bir çox standartların və sertifikatların tələb olunmasıdır: "Dünyada pambığa tələbat həddindən artıq böyükdür. Çünki inkişaf etmiş ölkələrdə sintetik parçalardan istifadəyə qadağa qoyulub. Bu da pambıqdan istifadəni artırıb. Təbii ki, bu tələbat da pambıqla bağlı bir çox standartlar və eyni zamanda sertifikatlar tələb edir. İxrac etdiyimiz pambığın həmin keyfiyyət standartlarına nə qədər uyğun olub-olması müzakirə olunmalıdır. Əgər pambığın ixracını artırmaq istəyiriksə, birmənalı olaraq, tələb olunan sertifikatlar və keyfiyyət standartlarına riayət etməliyik".

Elmir Səfərli

"DÜNYA BAZARLARINDA PAMBIĞIN QİYMƏTİ DÜŞÜB"

Mütəxəssisin sözlərinə görə, ikinci səbəb dünyada pambıq ipliyinə olan tələbatın azalmasıdır: "Pambıq ipliyinə tələbat azalıb, lifə (mahlıc) isə artıb. Pambıq ipliyi keçən il ərzində 75 faiz Türkiyəyə, 20 faiz civarında Rusiyaya, pambıq lifi isə 90 faiz Türkiyəyə, geri qalanı isə İrana və digər ölkələrə ixrac olunurdu. Bu il ərzində dünya bazarlarında pambığın qiyməti düşüb. Bu da ixraca müəyyən təsir göstərir".

"DAXİLİ BAZARDA PAMBIĞA TƏLƏBAT ARTIB"

E.Səfərli vurğulayır ki, ixracın azalmasının üçüncü səbəbi daxili bazarda pambığa olan tələbatın artmasıdır: "Ölkədə yerli tekstil şirkətlərinin sayı artır. Qeyri-neft sektorunun inkişafı ilə bağlı verilən tapşırıqlara əsasən, sahibkarlar daha çox yerli tekstil firmalarının açılması, eyni zamanda, tekstil məhsullarının yerli səviyyədə istehsalının təmin olunması məqsədilə müəyyən işlər görürlər. Bu isə, pambıq ipliyinə olan tələbatın daxildə müəyyən qədər artmasına gətirib çıxarır".

Qeyd edək ki, ölkəmizdə "ağ qızıl" adlandırılan pambıq dünyada ən önəmli məhsullardan sayılır. Təsadüfi deyil ki, Misir, Özbəkistan və Meksika pambığı dünya bazarlarında hazırda qızıla bərabər əmtəələrdir. İqtisadçı bildirir ki, Azərbaycan da bu ölkələr sırasında yer ala biləcək səviyyədədir. Biz pambıq istehsalımızı müəyyən qədər artıraraq, ixracda tələb edilən keyfiyyət standartları, sertifikatları və digər müəyyən tələbləri də yerinə yetirməklə ixracımızı artıra bilərik.

UKRAYNALI UŞAQLAR BAKIDA

Vladislav Kanevski

Peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, psixo-sosial təlimlər, ustad dərsləri vasitəsilə həmin uşaqların emosional vəziyyətlərinin stabilləşməsi, cəmiyyətə inteqrasiyaları təmin ediləcək. Onlar üçün ingilis dili kursları, ölkəmizin tarixi yerlərinə, muzeylərinə ekskursiyalar da təşkil olunacaq.

Ukraynadakı müharibədən əziyyət çəkmiş daha 30 nəfər ukraynalı uşaq Azərbaycana gətirilib. "Report" xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi düşərgəyə cəlb edilən uşaqlar Bakı, Şamaxı Qəbələ və Şəki şəhərlərində 14 günlük müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunacaqlar. Peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, psixo-sosial təlimlər, ustad dərsləri vasitəsilə həmin uşaqların emosional vəziyyətlərinin stabilləşməsi, cəmiyyətə inteqrasiyaları təmin ediləcək. Onlar üçün ingilis dili kursları, ölkəmizin tarixi yerlərinə, muzeylərinə ekskursiyalar da təşkil olunacaq.

OLQA MELNİK: "BÜTÜN TƏŞKİLATÇILARA ÇOX MİNNƏTDARAM"

Bakıya gətirilən ukraynalı uşaqları müşayiət edən Kiyev Vilayət Dövlət Administrasiyasının nümayəndəsi Olqa Melnik ukraynalı uşaqlara dincəlmək və ölkədə baş verən hadisələrdən uzaqlaşmaq imkanı verən təşkilatçılara minnətdarlığını bildirib.

"Uşaqları ölkəmizdə baş verən hadisələrdən uzaqlaşaraq dincəlməyə gətirdik. Kiyev vilayəti elə bir bölgədir ki, çox atəşə tutulur, ondan uşaqlar əziyyət çəkir. Uşaqlarımıza dincəlmək və ölkəmizdə baş verən olaylardan uzaqlaşmaq imkanı verən bütün təşkilatçılara çox minnətdaram. Maraqlı ekskursiyalar, tanışlıqlarımız olacaq, Azərbaycan mədəniyyətini öyrənəcəyik", - o qeyd edib. O, gətirilən uşaqların valideynlərinin cəbhədə döyüşdüyünü diqqətə çatdırıb. "Bizimlə bir qrup uşaq gəlib ki, onların ataları, anaları cəbhədə döyüşür, ölmüş, əsirlikdə olan, itkin düşmüş ataları var", - o əlavə edib.

İKİ HƏFTƏLİK PROQRAM, RƏNGARƏNG VƏ MÜSBƏT EMOSİYALAR

Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski də Azərbaycana gətirilən ukraynalı uşaqlarla bağlı paylaşım edib.

Diplomat feysbukda yazıb: "Artıq ikinci ildir ki, biz azərbaycanlı dostlarımızla birlikdə Rusiya Federasiyasının Ukraynaya silahlı təcavüzü nəticəsində zərər çəkmiş ukraynalı uşaqların reabilitasiyası və istirahəti layihəsinin icrasını davam etdiririk. Bu dəfə qonaqpərvər Azərbaycana Ukraynanın suverenliyini və ərazi bütövlüyünü rus işğalçılarından müdafiə edən və ya təəssüf ki, Vətənimizin işıqlı gələcəyi naminə canlarından keçmiş şəxslərin uşaqları təşrif buyurdular.

Qarşıda uşaqlarımızı zəngin iki həftəlik proqram, çoxlu rəngarəng və müsbət emosiyalar gözləyir".

"NAR" MÜŞTƏRİ MƏMNUNİYYƏTİ ÜZRƏ GÖSTƏRİCİLƏRİNİ YAXŞILAŞDIRIR

"Nar" 2023-cü ilin ilk yarısında keçirilən sorğular əsasında göstərdiyi xidmətlərlə bağlı müştəri məmnuniyyəti göstəricilərini açıqlayıb.

Günün istənilən saatında xidmətə hazır olan "Nar"ın 777 Çağrı Mərkəzinə son altı ayda 800 000-ə yaxın abunəçi müraciəti daxil olub və orta hesabla onlara iki dəqiqə ərzində cavab verilib. Ötən illə müqayisədə məmnunluq göstəricisi 2% artaraq 91,4% olub.

"Nar" xidmət mərkəzlərinə cari ilin keçdiyimiz dövründə müxtəlif sorğularla müraciət edən 20 000-dən çox abunəçinin 98%-i mobil operatorun göstərdiyi xidmətlərdən razılıqlarını bildiriblər. Müştərilərin bu xidməti seçməsinin əsas səbəblərindən biri daha rahat xidmət təqdim edən yenilənmiş "Nar" mağazalarının istifadəyə verilməsidir. Bu ilin ilk yarısında yeni standartlara cavab verən 7 "Nar" mağazası təqdim edilib, ilin sonuna qədər isə 12 "Nar" mərkəzi üstün müştəri xidməti üçün hazır vəziyyətə gətiriləcək.

bir milyondan çox abunəçi isə müraciətini "Nar+" tətbiqi vasitəsilə edib. Onların orta hesabla 87,4%-i bu tətbiq üzərindən rahat şəkildə cavab alıblar. Bundan başqa, "Nar"-ın sosial media komandası 40 mindən çox ismarıca operativ reaksiya verib. Müraciətlər daha çox tariflər, internet paketləri və nömrə ilə bağlı əməliyyatlar haqqında olub.

Müştəri təcrübəsinin hər zaman yüksəldilməsinə diqqət yetirən "Nar" davamlı olaraq abunəçilər üçün daha rahat istifadəyə yönəlik təkmilləşdirmələr aparır.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son dörd ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

CityNet 10 GBİT/S İNTERNET SÜRƏTİ TƏQDİM EDİR

Azərbaycanın qabaqcıl internet provayderi CityNet fərdi və korporativ müştərilərinin internet bağlantısını daha sürətli və keyfiyyətli etdi.

Şirkət Azərbaycanda ilk olaraq XGPON texnologiyasını tətbiq etmək üçün lazımi infrastruktur yaradıb. XGPON sayəsində CityNet müştəriləri saniyədə 10 Gbit/s qədər sürətli internetdən faydalanacaqlar.

XGPON ilə müştərilər fasiləsiz və keyfiyyətli internet ilə video zənglərdən, onlayn film izləməkdən, oyunlardan və digər imkanlardan zövq ala biləcəklər. Bu texnologiya səyəsində istifadəçilərə yüksək sürət və etibarlı xidmət təqdim edən CityNet biznesin inkişafına və müştəri təcrübəsinin təkmilləşdirilməsinə öz töhfəsini verməyə davam edəcək.

Xatırladaq ki, CityNet provayderi ölkəmizdə ilk dəfə bu texnologiyanı istifadəyə verən şirkətdir.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edərək və ya *1177 ilə əlaqə saxlayaraq əldə etmək mümkündür.

Kaspi
www.kaspi.az ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
5 AVQUST ŞƏNBƏ 2023

GENİŞLƏNƏN FUTBOL COĞRAFİYASI

Azərbaycanda yeni futbol mövsümü start götürür. İlk olaraq Premyer Liqada mübarizə başlayıb. Tezliklə I Liqa və II Liqa klubları da güclərini nümayiş etdirmək imkanı qazanacaqlar.

Yeni futbol mövsümü özəllikləri ilə əvvəlkilərdən seçilir. Öncə onu qeyd edək ki, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və Peşəkar Futbol Liqası (PFL) köklü islahatlar aparıblar.

Diqqətçəkən ilk məqam ölkə futbolunda, nəhayət idman prinsipinin gözlənilməsidir. Belə ki, ötən mövsüm Premyer Liqada sonuncu yeri tutan "Şamaxı" I Diviziona (yeni adı ilə I Liqa - red.) yuvarlanıb. Divizionun qalibi "Araz Naxçıvan" isə elitada yarışmaq hüququna yiyələnib. Məsələ ondadır ki, əvvəlki mövsümlərdə bu iki yarış arasında keçid ya baş tutmurdu, ya da idman prinsipləri gözlənilmirdi. Dəfələrlə I Divizionda çempionluq əldə etsə də, Premyer Liqaya yüksəlməyən komandalar olub. Bu isə narazılıqla qarşılanırdı.



ÜÇ LİQA, ƏVƏZEDİCİLƏRİN MÜSTƏQİL ÇEMPİONATI

Yeni "futbol ili"ndə fərqliliklərdən biri əvəzedicilərin yarışı ilə I Liqanın ayrılmasıdır. Premyer Liqa klublarının ikinci komandaları əvvəllər olduğu kimi, öz aralarında güclünü müəyyənləşdirəcəklər. I Liqada isə 10 komanda mübarizə aparacaq. Bunlar "Qaradağ Lökbatan", MOİK, "Mingəçevir", "Zaqatala", "İmişli", "Şamaxı", "İrəvan", "Difai Ağsu", "Araz Saatlı", "Karvan"dır. Adıçəkilən kollektivlərdən ilk beşi ötən mövsüm də bu yarışda çıxış edənlər, son dördü yeni komandalardır. "Şamaxı" isə artıq qeyd etdiyimiz kimi, Premyer Liqadan düşüb.

Yeni mövsüm üçün əsas yenilik II Liqanın yaradılmasıdır. Premyer Liqa və I Liqa peşəkar yarışlar olsa da, II Liqa yarıpeşəkar statusdadır. Söhbət ondan gedir ki, burada iştirak edəcək klubların üzərinə o qədər də ciddi tələblər qoyulmayacaq. Lakin onlar həvəskar statuslu Region Liqası klublarının daha təkmil versiyası olacaqlar.

II Liqada 12 komandanın yarışması təsdiqlənib. Lakin kuluarlarda gəzən söhbətlərə görə, əlavə müraciətlər olduğundan sayın 14-ə yüksəldilməsi istisna edilmir. Hələlik iştirakı rəsmiləşən komandalar "Füzuli", "Göygöl", "Ağdaş", "Sportinq Baku", "Qusar", "Marxal Şəki", "Şəfa Baku", "Cəbrayıl", "Lerik", "Kürmük Qax", "Kür-Araz" (İmişli) və "Şəmkir"dir.

YENİ "FUTBOL XƏRİTƏSİ" NƏ VƏD EDİR?

Beləliklə, üç liqada Bakıdan başqa 22 şəhər və rayonumuzun təmsilçisi olacaq. 32 komandadan doqquzu paytaxtı, ikisi İmişlini, 21-i isə digər bölgələri təmsil edəcək. Bu, son bir neçə ildə "Bakı birinciliyi" ilə məhdudlaşan ölkə futbolu adına müsbət məqamdır.

Əhəmiyyətli məqamlardan biri hər üç liqa arasında keçidlərin təmin olunmasıdır. Mütəxəssislər hesab edirlər ki, yarışlarda idman prinsiplərinin gözlənilməsi müsbət addımdır. Eyni zamanda, futbol coğrafiyasının genişlənməsi bölgələrdə bu idman növünün inkişafını sürətləndirəcək, gənclərin daha çox şans əldə etməsinə fürsət yaradacaq. Düzdür, xüsusən II liqa ilə bağlı narahatlıqlar mövcuddur. Lakin zamanla mövcud problemlərin yoluna qoyulacağına inam böyükdür. Hər halda çətin olan ilk addım artıq atılıb.

CityNet 1+1 kampaniyasına start verdi

CityNet müştərilər üçün əlverişli 1+1 kampaniyasına start verdi. Artıq CityNet xidmətlərinə yeni qoşulan və mövcud tariflərdən birini seçən müştərilər birinci ayın abunə haqqını ödəyərək ikinci ay seçilmiş tarifdən pulsuz istifadə edəcəklər. Kampaniyadan www.citynet.az veb saytı vasitəsilə xidmətlərə qoşulmaqla yararlanmaq mümkündür.

Yeni müştərilər şirkətin veb saytında müvafiq məlumatları daxil etməklə üç tarif paketindən birini seçərək qoşulma sorğusu göndərə və kampaniyadan yararlana bilərlər. Birinci tarif paketində 40 mbit/s sürətli internet sadəcə 17.99 AZN-ə təqdim edilir. Həm internet, həm də TV xidmətini əhatə edən ikinci tarif paketində 50 mbit/s sürətli internet və 240 TV kanal birlikdə istifadəçilərə sadəcə 27.99 AZN-ə təqdim olunur. Vahid paketdə olan üç xidmət - 100 mbit/s internet, 240 TV kanal və ev telefonu xətti xidməti isə CityNet tərəfindən abunəçilərə sadəcə 37.99 AZN-ə təqdim olunur.

CityNet-dən 1+1 kampaniyası məhdud müddətdə qüvvədə olmaqla yeni qoşulan abunəçilərə şamil olunacaqdır. Bu səbəbdən internet provayder müştərilərini bu əlverişli kampaniyadan yararlanmağa çağırır.

Kampaniya CityNet xidmətlərinin aktiv olduğu bütün ərazilərə və həm FTTB, həm də GPON texnologiyası ilə xidmətlərə qoşulan abunəçilərə şamil edilir.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir.

CityNet-ə yeni qoşulan abunəçilərə istifadə müddətində yeni nəsil TV Box və WiFi ruter cihazı da pulsuz verilir. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, texniki dəstək, xidmətin hər hansı ünvanda mövcudluğu ilə bağlı şirkətin www.citynet.az veb saytında ətraflı məlumat əldə etmək mümkündür.